

# Fransa Yeni Kaledoniyanın azadlıq istəyini qan içində boğur

**Fransa XXI əsrdə neokolonializm siyasətini bütün qəddarlığı ilə davam etdirən Avropa dövlətidir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Fransanın bu amansız siyasəti, təəssüf ki, nə dünyaya “insan haqları”, “demokratiya” dərsi vermək iddiasında olan Avropa İttifaqı, nə də digər dünya gücləri tərəfindən pislənilir. Bu isə rəsmi Parisə azsaylı xalqlara, ada dövlətlərinə qarşı amansız “parçala və hökm sür!” siyasətini davam etdirməyə imkan verir.**

Bu gün Fransanın müstəmləkəsi altında olan Yeni Kaledoniya, Mayot adaları, Fransız Qvianası və s. dövlətlər həmin siyasətin ağrı və əzablarına dözmək məcburiyyətindədirlər. Bu ərazilər Fransa sərhədlərindən minlərlə kilometr uzaqda olsa da, Paris XXI əsrdə belə onların müstəqilliyini tanımaq niyyətində deyil.

*(ardı 4-cü səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 237 (30641) 27 oktyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti





## Azərbaycanın TDT-də texnoloji əməkdaşlıq təşəbbüsü



Səhifə ⇨ 7

# COP29 Azərbaycanı beynəlxalq nüfuz zirvəsinə yüksəldir

**Azərbaycanın COP29-a sədrlik etməsi ölkəmizin beynəlxalq nüfuzu baxımından strateji önəm daşıyır. İqlim konfransının respublikamızda keçirilməsi tarixi hadisədir.**

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası barədə qərarın yekdilliklə qəbul edilməsi də, sadəcə, bir toplantının gerçəkləşdirilməsi anlamını vermir. Bu qərar, ilk növbədə, Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin növbəti etimad, inam və nüfuzunun göstəricisidir. Azərbaycan bu hörməti əməli fəaliyyəti, müstəqil siyasəti, prinsipial mövqeyi, beynəlxalq hüquqa olan sədaqəti ilə əldə edib. Bu qərarın qəbul edilməsində ölkəmizin bütün ərazisində suverenliyin bərpa edilməsi amili də xüsusi rol oynayıb.

Müstəqilliyinin 33 yaşı yenicə tamam olan respublikamızın 120 dövlətin üzv olduğu Qoşulmama Hərəkatına yüksək səviyyədə rəhbərlik etməsi, dünyada ilk dəfə keçirilən I Avropa Oyunlarına ev-sahibliyini uğurla gerçəkləşdirməsi, Formula 1, IV İslam Həmrəyliyi Oyunlarının




təşkilində səmərəli fəaliyyət göstərməsi də COP29-a sədrlik missiyasının ölkəmizə tapşırılmasında önəmli rol oynayıb. Respublikanın 33 illik müstəqillik tarixində heç vaxt COP29 kimi böyük və ciddi zirvə toplantısı olmayıb. Azərbaycan artıq təkcə Cənubi Qafqaz regionunda deyil, bütün postsovet məkanında qlobal iqlim sammitinə evsahibliyi edəcək ilk ölkə kimi adını tarixə yazdırıb.

*(ardı 8-ci səhifədə)*

## Dünya səyyahları Şuşada və Ağdamda



Səhifə ⇨ 9




Səhifə ⇨ 11

# BRICS platforması – Azərbaycan, Dünya və Cənubi Qafqaz

## *Təşkilatla əməkdaşlıq ölkəmizə hansı faydaları gətirəcək?*

**Prezident İlham Əliyevin oktyabrın 24-də Rusiyanın Kazan şəhərində keçirilmiş XVI BRICS Sammitində iştirakı Azərbaycanın bu təsisatla əməkdaşlığa verdiyi önəmin göstəricisidir. BRICS platforması nə üçün vacibdir? Yazıda, əsasən, bu suala cavab tapmağa çalışacaq, mövcud istiqamətdə bir sıra məqamların üzərində dayanacağıq. Ən sonda isə BRICS formatının hazırkı məqamda Azərbaycan–Ermənistan sülhü baxımından nə dərəcə əlverişli olduğundan söz açacağıq.**




Əvvəla, onu deyək ki, BRICS sürətlə inkişaf edən beş ölkənin – Braziliyanın, Rusiyanın, Hindistanın, Çinin və Cənubi Afrika Respublikasının formalaşdırdıqları təşkilatdır. Birinci kənd təsərrüfatı məhsulları ilə zəngindir, ikinci dünyada ən böyük mineral, üçüncü müasir intellektual, dördüncü isə ucuz əmək resurslarına malikdir. Cənubi Afrika Respublikasına gəldikdə isə ölkə təbii resurslarının çoxluğu ilə seçilir. Şübhəsiz, bu göstəricilərlə hesablaşmamaq şərtdir. Deməli, BRICS-n dünyada söz sahibi olma üstünlüyü var. Yəni, sırf iqtisadi blok kimi yaradılmış qurumun geosiyasi reallıqlara təsir qüvvəsi nəzərə alınmalıdır. Ölkəmiz isə dəyişən güc balansının xarici siyasət strategiyalarına təsirlərini hər zaman qiymətləndirib və balanslı siyasətinə sadiqdir.

*(ardı 3-cü səhifədə)*

# REVANŞİSTLƏR xislətlərinə sadiqdirlər

Səhifə ⇨ 3



# Avropa İttifaqına notamız – AP-ni ayağınıza bağlayın!

## *Azərbaycan XİN-in səfir Mixalkonun diqqətinə çatdırdıqlarına sözardı*

**Oktyabrın 25-də Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb və ona etiraz notası təqdim edilib. Notaya səbəb Avropa Parlamentinin oktyabr 24-də qəbul etdiyi qətnamə, eləcə də qurumda bununla bağlı keçirilmiş müzakirələr çərçivəsində Avropa komissarı tərəfindən səslənmiş anti-Azərbaycan mahiyyətli fikirlər olub. XİN həmin fikirlərin əsassız və qərəzli olduğunu, bu cür yanaşmanın qəti şəkildə pislənildiyini səfirin diqqətinə çatdırıb.**

Əvvəla, onu deyək ki, AP-nin üç əsas səlahiyyəti var. Bunlar Avropa İttifaqına dair qanunlar qəbul etmək, həmin qanunların yerinə yetirilməsinə nəzarəti həyata keçirmək və qurumun büdcəsinin icrasına nəzarət etmək. Bu səlahiyyətlər üzv ölkələr tərəfindən müəyyənləşdirilib. Deməli, Azərbaycanla bağlı qətnamə qəbulu AP-nin səlahiyyətlərinə ziddir. Ən azı, ona görə ki, ölkəmiz qurumun da tərkibində yer aldığı Avropa İttifaqının üzvü deyil. Baxmayaraq ki, Azərbaycan Aİ-nin müxtəlif strukturları ilə sıx əlaqələrə malikdir və bu əlaqələri pozmaq cəhdləri də müşahidə olunmaqdadır. Əminliklə deyə bilərik ki, oktyabrın 24-də qəbul edilmiş qətnamə bu cəhdlərdən biridir.

*(ardı 5-ci səhifədə)*

# 1995-ci ilin qara payızı

**Elə bil bizi qarğımışdılar – dərdin birini çəkib qurtarmamış başqası yaxalayırdı, yaranın biri soyumamış yenisi vurulurdu. 20 Yanvarın, Xocalının, oda qalanmış yurd yerlərimizin ağrısı sanki içimizdə bir dərd ağacı göyərdirdi. 1995-ci ilin qara payızı dərd ağacımızın boyunu bir qol da uzatdı.**



Artıq bəziləri unudub, çoxları dumanlı şəkildə xatırlayır, elə soydaşlarımız var ki, bu barədə heç məlumatlı deyillər: 1995-ci ilin 28 oktyabrında, saat 17:50-də Bakıda dünyada ən böyük metro qəzası baş verib. “Ulduz”dan “Nərimanov” stansiyasına doğru hərəkət edən metro qatarında qəfil yanğın başlayıb. Bu faciədə rəsmi məlumata görə, 289 nəfər həlak olub , 270 nəfər isə yaralanıb. Faciəyə səbəb qatarın tuneldə alışması və xilasetmə əməliyyatının yetərsizliyi olub.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 463** **Bakı şəhəri, 23 oktyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 143-8 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Tibb Baş İdarəsi, Məhkəmə Ekspertizası Mərkəzi və Ədliyyə Akademiyası istisna olmaqla) xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 84 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 143-8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə -"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Tibb Baş İdarəsi, Məhkəmə Ekspertizası Mərkəzi və Ədliyyə Akademiyası istisna olmaqla) xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarının məbləğləri"ndə dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 464** **Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

***Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin noyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Hacıqabul** | Hacıqabul, Şirvan | 01 |
| 2. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Sumqayıt** | Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan | 01 |
| 3 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Hacıqabul** | Hacıqabul, Şirvan | 06 |
| 4. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | 07 |
| 5 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar, Şirvan, Hacıqabul | 07 |
| 6. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Daşkəsən** | Daşkəsən, Göygöl | 07 |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | 15 |
| 8 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Ağcabədi** | Ağcabədi, Bərdə, Ağdam, Tərtər, Füzuli, Laçın, Xocalı | 15 |
| 9 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Yevlax** | Yevlax, Mingəçevir | 22 |
| 10. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Mingəçevir** | Mingəçevir, Ağdaş | 25 |
| 11. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar, Şirvan, Hacıqabul | 29 |
| 12. | **Energetika naziri** Pərviz Şahbazov | **Tərtər** | Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Yevlax | 29 |
| 13 | **Ədliyyə naziri** Fərid Əhmədov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Tərtər, Ağcabədi, Laçın | 29 |
| 14. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Oğuz** | Oğuz, Qəbələ | 29 |
| 15 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Xaçmaz** | Xaçmaz, Quba | 29 |
| 16. | **Mədəniyyət naziri** Adil Kərimli | **Abşeron** | Abşeron, Sumqayıt, Xızı, Qubadlı | 29 |
| 17. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 29 |
| 18 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **İmişli** | İmişli, Saatlı, Sabirabad | 29 |
| 19 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Daşkəsən** | Daşkəsən, Göygöl, Gəncə, Samux, Kəlbəcər | 29 |
| 20. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Astara** | Astara, Lənkəran | 29 |
| 21. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | 29 |
| 22. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | 29 |
| 23. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Salyan** | Salyan, Neftçala | 29 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Ədliyyə naziri Neftçalada vətəndaşlarla görüşüb

**Ədliyyə naziri Fərid Əhmədov oktyabrın 25-də Neftçala rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**



Qəbulda Neftçala, Salyan, Şirvan və Hacıqabul rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

**XQ**

# Muxtar Babayev və Con Podesta COP29 ərəfəsində iqlim əməkdaşlığını müzakirə ediblər

**COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev ABŞ Prezidentinin beynəlxalq iqlim siyasəti üzrə xüsusi müşaviri Con Podesta ilə görüşüb.**

Bu barədə COP29-un "X" sosial şəbəkəsindəki səhifəsində məlumat verilib.

Tərəflər 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində iqlim dəyişikliyi probleminin həlli üçün əməkdaşlığın və qlobal tədbirlərin əhəmiyyətini müzakirə ediblər.

**XQ**



# MSK-nın nümayəndə heyəti Özbəkistanda

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistan Respublikasına səfərə yola düşüb.**



Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayevin dəvətinə əsasən reallaşdırılan səfərin başlıca məqsədi oktyabrın 27-də Özbəkistanın Ali Məclisinə keçiriləcək seçkiləri izləməkdir.

Səfərdə Məzahir Pənahovun özbəkistanlı həmkarı, həmçinin seçkilərin müşahidəsində iştirak edən təşkilatların və xarici ölkələrin seçki idarəetmə orqanlarının rəhbərləri ilə ikitərəfli görüşlərinin keçirilməsi də nəzərdə tutulur.

**XQ**

# Cenevrədə "Yaşıl rəqəmsal fəaliyyət təşəbbüsü" açıqlanıb

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən (RİNN) aldığımız məlumata görə, bir sıra xarici ölkələrin Cenevrədə akkreditə olunmuş diplomatik nümayəndəliklərinin rəhbərləri və diplomatları üçün brifinq təşkil olunub. Tədbir Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycan Respublikasının Cenevrə şəhərində BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi və RİNN-nin COP29 zamanı keçiriləcək "Yaşıl rəqəmsal fəaliyyət təşəbbüsü" ilə bağlı keçirilib.**



Brifinqə Cenevrədə fəaliyyət göstərən 30-a yaxın diplomatik missiyadan nümayəndələr iştirak ediblər. Tədbirdə çıxış edənlər adıçəkilən təşəbbüsün əhəmiyyəti barədə məlumat veriblər.

Brifinqə, həmçinin iqlim konfransına hazırlıq prosesinin gedişatı, planlaşdırılan işlər və qarşıda duran vəzifələr və prioritetlərə dair təqdimat olub.

**XQ**

# "Lütfən, daha isti hava yox"

## *BMT-nin Ətraf Mühit Proqramının dünyaya bu çağırışı iqlim savaşına önəmli dəstəkdir*




**Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı "Lütfən, daha isti hava yox" adlı 2024-cü il hesabatında ölkələri planetar istiləşmənin dağıdıcı təsirlərinin qarşısını almaq məqsədilə 2030-cu ilə qədər illik istixana qazı emissiyalarını 42 faiz azaltmağa çağırıb və yeni iqlim öhdəliklərində böyük emissiya boşluğunun aradan qaldırmasının və təcili tədbirlər görülməsinin zəruriliyini bildirib.**

Hesabatda qeyd olunub ki, daha təmiz yanacağa davamlı keçid və yaşayış mühitinin bərpası şərti ilə qlobal temperaturu Paris İqlim Sazişində qeyd olunan 1,5 dərəcə Selsi həddində saxlamaq mümkündür.

Adıçəkilən proqramın icraçı direktoru İnger Andersen vurğulayıb ki, ölkələr karbon qazının azaldılması ilə bağlı öhdəliklərinə əməl etməklə ekstremal daşqınlar, quraqlıqlar, siklonlar və meşə yanğınları da daxil olmaqla iqlim dəyişikliyi ilə əlaqəli fəlakətlərin qarşısını ala bilər. O daha sonra bildirib: "Atmosferdə istilik dərəcəsinin məqbul səviyyəsinin saxlanılması xilas edilən həyatlar, inkişafda olan iqtisadiyyatlar, zərərlərin qarşısının alınması, qorunan biomüxtəliflik və istənilən temperatur həddini sürətlə aşağı salmaq qabiliyyəti baxımından əhəmiyyətlidir".

COP29 ərəfəsində təqdim edilən hesabatda bildirilir ki, istixana qazları emissiyaları 2019-cu ildən bəri rekord həddə – 57,1 giqaton karbon qazına çatıb. Hesabata görə, getdikcə artan külək enerjisi və günəş fotovoltaik texnologiyaları 2030-cu ilə qədər ümumi potensial azalmanın 27 faizini, 2035-ci ilə qədər isə 38 faizini gerçəkləşdirə bilər. İ.Andersen əlavə edib ki, meşələrin qırılmasının dayandırılması, nəqliyyat, binalar və sənaye sektorlarının "yaşıl"laşdırılması kimi digər güclü tədbirlər karbonsuzlaşdırma məqsədlərinə çatmaqda əsas rol oynayacaq.

**XQ**

# BRICS platforması – Azərbaycan, Dünya və Cənubi Qafqaz

(əvvəli 1-ci səhifədə)

Azərbaycan multilateralizm prinsipini əsas götürərək, çoxtərəfli diplomatiya həyata keçirir. Ölkəmiz uzun müddətdir ikili standartlar siyasətinə məruz qalır, onun təsirlərini üzərində hiss edir. İkili standartlar siyasəti isə özünü ədalətsiz yanaşmalarda göstərir. Bu, o deməkdir ki, Azərbaycan BRICS-ə, ilk növbədə, ədalətli platforma kimi yanaşır. Yəni ondan gözləntimiz budur. Deməli, təşkilat multilateralist çoxtərəfli diplomatik fəaliyyətimizin, belə demək mümkünsə, növbəti təzahür platforması kimi maraqlıdır. Daha doğrusu, həmin platformalardan biri və mühümüdür.

Azərbaycan Cənubi Qafqaz üzrə başlıca aktordur. Bu missiya həm yeni dünya düzəninin, həm də ölkəmizin dünya siyasətindəki yeri və rolunun, bir növ, diktəsidir. Aktorluq Azərbaycanın qarşısında əlverişli perspektivlər açır. Ancaq müxtəlif təzahürləri ilə üzləşdiyimiz ikili standartlar siyasəti ədalətsizliyə və ayrı-seçkiliyə əsaslanır. Nəticədə görürük ki, ölkəmizin mövqeyi və statusu layiqincə dəyərləndirilmir. Deməli, daha faydalı və əlverişli düzən axtarılması mütləqdir. BRICS-i bu baxımdan tapıntı saymaq mümkündür. Əminliklə deyə bilərik ki, təşkilatla əməkdaşlığımız Cənubi Qafqazda təhlükəsizliyi, sülhü sarsıtmaq istəyən güclərə qarşı mexanizmlərimizi daha da təkmilləşdirmək imkanı verəcək. Bu imkan, eyni zamanda, ona görə yaranacaq ki, ölkəmiz BRICS-in köməyi ilə iqtisadi alətlərini şaxələndirmək şansı qazanacaq, bununla bağlı yeni elementlərə yiyələnəcək. Nəticə etibarilə, Azərbaycanın qlobal dəyişikliklər fonunda regiona təsir risklərini idarə etmək potensialı da güclənəcək.



Bir daha ədalət amili üzərində dayanaraq deyək ki, BRICS mahiyyətcə anti-Qərb düzənidir. Dünya Qərbin, o cümlədən, ABŞ-nin ədalətsiz yanaşmalarına şahiddir. Təşkilat ədalətsizliklərin iqtisadi zəmindəki təsirlərinin azaldılması aləti kimi effektivdir. Effektivlik Qərbin sanksiya siyasətinin təsirlərini heçə endirmək imkanındadır. Çünki BRICS ölkələrinin dünya iqtisadiyyatındakı rolu böyükdür. Yəni, bu baxımdan da ölkəmiz üçün fayda var. Azərbaycan qurumla əməkdaşlıqla heç bir çətinliksiz, bərabərhüquqlu şəkildə iqtisadiyyatını diferensiallaşdırmaq imkanı qazanacaqsa, deməli, fayda da özünü çox gözlətməyəcək.

Nəzərə alaq ki, iqtisadi sabitlik, eyni zamanda, siyasi stabillik, əmin-amanlıq və firavanlıq deməkdir. Ölkəmiz nəinki özündəki stabilliyi əsas götürür, habelə, bütövlükdə, Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsi naminə səylər göstərir. Bunun üçün isə təminat lazımdır. Hesab edirik ki, BRICS-lə əməkdaşlığın verdiyi təminatlar daha ciddidir. Bu təminatlar Qərb imperializminə qarşı duruş gətirmək, ümumən, təkqütblü dünyanın mənfi reallıqlarına müqavimət immunitetidir.

Onu da vurğulayaq ki, Qoşulmama Hərəkatına uğurlu sədrlik edən, təşkilatda səmərəli fəaliyyət göstərən Azərbaycan COP29-un sədr ölkəsi olaraq dünya iqlim diplomatiyasını da aktiv şəkildə formalaşdırır, Qlobal Cənub və Qlobal Şimal ilə dialoq aparır. Mövcud konteksdə həm də BRICS ölkələri ilə dialoqumuz var və proses səmərəli əməkdaşlıq fazasındadır. Hesab edirik ki, bu meyilin gələcəkdə inkişaf etdirilməsi şərtdir. Deməli, təşkilatla əməkdaşlığın belə bir dividend payı da var.

Nəhayət, bu gün BRICS platformasını ölkəmiz üçün aktual edən daha bir məqama diqqət yetirək. Söhbət əvvəldə bildirdiyimiz məqamdan – Bakı ilə İrəvan arasındakı münasibətlərdən gedir. Məlum olduğu kimi, Kazanda Azərbaycan və Ermənistan liderlərinin görüşü keçirildi. Əlbəttə, tam anlamda demək olmaz ki, görüş Cənubi Qafqazda sülhə nail olmaq, konkret olaraq, Bakı ilə İrəvan arasında yekun barış müqaviləsinin imzalanması baxımından real faydalı nəticələr verdi. Ancaq fakt budur ki, ölkə liderlərinin təmasında özünəməxsusluq var. Müstəqillik illərində ilk dəfə idi ki, onlar hər hansı vasitəçilərsiz bir araya gəldilər. Deməli, BRICS sülh yolunda vasitəçilərsiz görüş platforması baxımından da öz sözünü demiş oldu.

Azərbaycan və Ermənistan liderlərinin Kazandakı görüşü nə qədər birbaşa təmas kimi görünsə də, istər-istəməz, BRICS vasitəçiliyi amili üzərində dayanmaq mümkündür. Onu da nəzərə alaq ki, Ermənistan uzun müddət, belə demək mümkünsə, “tetatet”likdən yayınıb, bunu birbaşa təmas zamanı əldə ediləcək nəticələrin Azərbaycan tərəfindən heçə endiriləcəyi ritorikası ilə əsaslandırıb. Əlbəttə, bu, bəhanə idi. Hazırda Kazan görüşü mövcud mənfi stereotipi sıradan çıxarmış kimi görünür.

Digər tərəfdən, Azərbaycan və Ermənistan liderlərinin Kazan sammiti zamanı bir araya gəlmələrini BRICS-in vasitəçiliyi kontekstində dəyərləndirsək, deyə bilərik ki, ənənəvi Qərb və Rusiya xətləri, müəyyən mənada, heçə enmiş durumdadır. Rusiya ilə bağlı hər şey aydındır, çünki ölkə BRICS-in nüvəsini təşkil edənlərdəndir. Qərbə gəldikdə isə Ermənistanın sülh yolunda bundan sonrakı hərəkət və davranışlarına diqqət yetirməsi lazım gələcək. Tam mümkündür ki, Qərb özünün təmsil olunmadığı düzəndəki görüşə görə Nikol Paşinyan administrasiyasına cəza kəssin. Sual olunur: Ermənistan rəhbərliyi bunun qarşısında duruş gətirə biləcəkmi? Suala ən düzgün cavabı zaman verəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İqtisadi inteqrasiya və faydalı tərəfdaşlığın yeni istiqaməti

## *BRICS ilə əməkdaşlıq ölkəmizin çoxyönlü xarici siyasətinə əsaslanır*

**Azərbaycan ötən illər ərzində beynəlxalq müstəvidə özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Eyni zamanda, həyata keçirilən uğurlu siyasət dövlətimizin əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirib, dinamik inkişafı şərtləndirib. Təbii ki, respublikamızın sürətli inkişafı, iqtisadi gücünün artması, əhalinin rifahının yüksəlməsi bir sıra digər məsələlərdə təsiredici rol oynayıb. Əldə edilən uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirib.**



Bu gün əminliklə qeyd edə bilərik ki, ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Son bir neçə ildə Azərbaycanın qazandığı uğurlar, hərtərəfli iqtisadi nailiyyətlər respublikamızı regionda güc mərkəzlərindən birinə çevirir, bütün beynəlxalq təşkilatlar, çox sayda nüfuzlu dövlət ölkəmizə ciddi maraq göstərir, yaxın olmaq, tərəfdaşlıq etmək istəyir.

Həyata keçirdiyi balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlarda da uğurla təmsil olunur. BMT, NATO, İƏT kimi dünya siyasətində söz sahibi olan təşkilatlarda respublikamızla əməkdaşlıq strateji prioritet kimi müəyyənləşdirilir. Azərbaycanın BRICS təşkilatına qoşulmaq istəyi də yüksək dəyərləndirilir.

Yeri gəlmişkən, bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub. Bəyannamənin 4,5-ci bəndində Azərbaycanın BRICS-lə əməkdaşlığında iştirakı alqışlanıb.

Qeyd edək ki, 2006-cı ildə yaradılan BRICS (BRICS) Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası (CAR), Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirliklərini özündə birləşdirən hökumətlərarası təşkilatdır. BRICS-in əsas məqsədi üzv dövlətlər arasında diplomatik, təhlükəsizlik və iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Xatırladaq ki, əvvəlcə investisiya imkanlarını müəyyənləşdirən qruplaşma hökumətləri 2009-cu ildən indiyədək hər il rəsmi sammitlərdə toplaşaraq çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.

BRICS-yə üzv dövlətlərin liderlərinin bu il oktyabrın 22–24-də Tatarıstan Respublikasının paytaxtı Kazanda keçirilən sammitində Prezident İlham Əliyevin iştirakı da mühüm tarixi hadisə kimi diqqət çəkib. Bununla bağlı **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin strateji planlaşdırma şöbəsinin müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov** redaksiyamıza təqdim etdiyi şərhdə deyib:



– Azərbaycanın BRICS-də iştirakı strateji uğurlar və iqtisadi əməkdaşlıq perspektivləri vəd edir. Prezident İlham Əliyevin Rusiyaya səfəri və Kazan şəhərində XVI BRICS Sammitində iştirakı bunu təsdiqləyir. BRICS 2009-cu ildə ticarət, investisiya və maliyyə əməkdaşlığını artırmaq, elm, texnologiya və innovasiyalar sahəsində birgə əməkdaşlığı inkişaf etdirmək, eləcə də mədəni, sosial və humanitar mübadiləni genişləndirmək məqsədilə yaradılıb. Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası ilə yaradılan BRICS-yə üzv ölkələrin sıraları sonradan daha da genişləndirilib. Dünya əhalisinin 45 faizini, qlobal iqtisadiyyatın 37 faizdən çox hissəsini əhatə edən BRICS artıq yeni gücə və yeni iqtisadi tərəfdaşlıq platformasına çevrilməkdədir. Bu isə, təbii ki, təşkilat üzvləri üçün çoxşaxəli və yeni inkişaf imkanları yaradır. Mütəxəssislərin fikrincə, 2050-ci ilə qədər BRICS-ə daxil olan üzv ölkələrin ümumi iqtisadiyyatı dünyanın ən zəngin ölkələrinin cəmi iqtisadiyyatlarını geridə qoyacaq.

Azərbaycanın BRICS-nin əksər üzvləri ilə bu və ya digər dərəcədə iqtisadi əlaqələri formalaşıb və inkişaf etməkdədir. 2023-cü ilin rəqəmləri Azərbaycanın xarici ticarət dövriyyəsində BRICS ölkələrinin payının, təqribən, 18 faiz təşkil etdiyini göstərir ki, bu da 2022-ci illə müqayisədə 13,5 faiz artım deməkdir. Ümumilikdə isə, 2021–2023-cü illərdə idxal, ixrac, ümumi ticarət dövriyyəsində BRICS üzvlərinin payı aşağıdakı diaqramlarda əks olunur:







Göründüyü kimi, idxalda Rusiya və Çin, orta hesabla, 18 faiz və 15,7 faizlə üstünlük təşkil edir. İxracda isə Rusiya və Hindistan daha çox xüsusi çəkiyə malikdir. Belə ki, ölkəmizin ümumi ixracının, orta hesabla, 3,2 faizi Rusiyanın, 3,4 faizi isə Hindistanın payına düşür. Ümumilikdə, BRİCS üzvləri ilə ticarət dövriyyəsində ilk üçlükdə, orta hesabla, 8,1 faizlə Rusiya, 5,2 faizlə Çin və 2,9 faizlə Hindistan yer alır.

Kazanda keçirilən 16-cı sammitdə daha 30 ölkənin BRICS-ə üzv olmaq və ya tərəfdaşlıq üçün müraciət etdiyini nəzərə aldıqda, bu beynəlxalq platformanın gələcəkdə daha genişmiqyaslı iqtisadi əlaqələrin qurulmasında əhəmiyyəti artmış olur. Müraciət edən ölkələr içərisində Türkiyə, Pakistan, Qazaxıstan kimi iqtisadi əlaqələrimizin daha güclü olduğu dövlətlər də var.

Ölkəmizin BRICS beynəlxalq platformasına üzvlük təşəbbüsü iqtisadi inteqrasiya, enerji resurslarının istifadəsi, investisiya və infrastruktur layihələri, üzv ölkələr arasında mədəni və sosial əməkdaşlığın inkişafı, respublikamızın xarici siyasətinin daha da şaxələndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycanın BRICS-ə üzv olması, iqtisadi, siyasi və sosial sahələrdə geniş imkanlar təqdim edərək, ölkənin beynəlxalq mövqeyini gücləndirməklə, həm regional, həm də qlobal səviyyədə daha balanslı, eləcə də ədalətli bir sistemin yaradılmasına yönəlmiş müsbət bir addım olacaq.

Təşkilat daxilində nəqliyyat dəhlizlərinə diqqətin artırılması, nəqliyyat infastrukturunun, o cümlədən limanların inkişafı, təkmilləşdirilməsi və s. kimi məsələlər prioritetdir. Bütün bunlar isə Avropa və Asiya arasında mühüm nəqliyyat–tranzit qovşağı olan Azərbaycanın əhəmiyyətini daha da artırır, eləcə də ölkəmin potensial imkanlarından daha səmərəli istifadəyə imkan yaradır. Qeyd edinələr deməyə əsas verir ki, BRICS – iqtisadi əməkdaşlıq və inkişaf üçün strateji tərəfdaşlığın yeni istiqamətidir.

***V.BİNYƏTOĞLU***
***XQ***

# REVANŞİSTLƏR xislətlərinə sadiqdirlər

**Ermənistanda Azərbaycanla sülh müqaviləsinin imzalanmasını istəməyən, yeni müharibə, revanş xəyalı ilə yaşayan siyasi zümrə yenidən fəallaşıb. Bu da gözlənilən idi. Ötən illərin təcrübəsi sübut edir ki, onlar Azərbaycanla münasibətlərin yaxşılaşmasına, sülhə, etimad yaradılmasına doğru addım atılarkən dərhal hərəkətə keçərək bu prosesi pozmağa çalışırlar.**

Ölkəni uzun illər idarə etmiş, onun təbii sərvətlərini çapıb-talamış, Azərbaycanla sülh danışıqlarını hər dəfə pozmuş Qarabağ klanının bu gün parlamentdə “Hayastan” adı altında zühur etmiş tərəfdarları, əsasən Paşinyanın işdən çıxardığı məmurların cəmləşdiyi “Şərəfim var” fraksiyası ilə birgə xislətinə sadiqlik nümayiş etdirir. Həmçinin, müxtəlif partiyaları təmsil edən və müstəqil siyasətçi olduğunu bəyan edən şəxslər, politoloq və ekspertlər də revanşist iddialar səsləndirirlər. Onların yuxusuna haram qatan əsas məsələ Ermənistan parlamentinin oktyabrın 23-də “Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə”ni təsdiq etməsi olub. Məlum olduğu kimi, həm “Hayastan”, həm də “Şərəfim var” fraksiyası məsuliyyəti bölüşmək istəməyərək səsverməni boykot ediblər.



Bundan bir gün sonra – oktyabrın 24-də Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüş olub. Görüşdən bir gün sonra isə hər iki ölkədə adı çəkilən əsasnamələr ən yüksək səviyyədə təsdiqlənib. Bundan əlavə, oktyabrın 25-də Ermənistan tərəfi noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün xarici işlər naziri Ararat Mirzoyanın adına dəvət aldığını açıqlayıb. Məlumatı Ermənistan xarici işlər nazirinin müavini Paruyr Ovannisyan açıqlayıb. O, əlavə edib ki, hazırda bu məsələ hökumətdə müzakirə olunur. Elə həmin gün Ermənistan teleqram kanalları rəsmi İrəvanı yüksək səviyyəli tədbirdə xarici işlər naziri Ararat Mirzoyanın təmsil edəcəyi barədə xəbərlər yayıblar. Bütün bunlar Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması üçün müsbət jestlər kimi qiymətləndirilə bilər. Odur ki, radikallar və revanşistlər hərəkətə keçərək prosesi pozmağa çalışırlar.

Politoloq Suren Surenyants “Sputnik Ermənistan”a müsahibəsində bildirib ki, Nikol Paşinyanın BRICS Sammitində iştirakı ilk növbədə Azərbaycan Prezidenti İlham Əliyevlə ünsiyyət üçün lazım idi. Onun sözlərinə görə, həm Paşinyanın plenar iclasdakı çıxışı, həm də kənarda baş verənlər göstərdi ki, “Outreach”/“BRICS+” formatı Ermənistan baş naziri üçün müstəsna olaraq Bakı–İrəvan münasibətləri kontekstində maraqlıdır: “İstisna etmirəm ki, Nikol Paşinyanla İlham Əliyevin görüşü barədə razılıq MDB dövlət başçılarının oktyabrın 8-də Moskvada keçirilən sammitində əldə olunub”.

Onun fikrincə, tərəflər sülh prosesinin bütün məqamlarını, delimitasiya-demarkasiya prosesini, o cümlədən danışıqların növbəti mərhələsinə start verəcək Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünün təşkili ilə bağlı texniki xarakterli məsələləri müzakirə ediblər. Bununla belə, politoloq hesab edir ki, hər iki tərəf institusional sülhün bərqərar olması perspektivindən uzaqdır və danışıqların başa çatma vaxtı barədə danışmaq hələ tezdir. Hər halda Surenyants əmindir ki, noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu sessiyasına qədər sülh müqaviləsi imzalanmayacaq: “Paşinyan Ermənistan–Azərbaycan danışıqlarının dinamikasını nə qədər “çəhrayı rəngdə” təqdim etsə də, 80–90 faizlik razılaşmadan nə qədər danışsa da, buna baxmayaraq, ziddiyyətlər hələ də çox dərindir. Xüsusilə, bunlar kommunikasiyaların açılması, anklavlar, delimitasiya və demarkasiya ilə bağlı məsələlərdir”.

(ardı 4-cü səhifədə)

# Fransa Yeni Kaledoniyanın azadlıq istəyini qan içində boğur

(əvvəli 1-ci səhifədə)

Elə son vaxtlar ərzində bu ərazilərdə genişlənməkdə olan milli azadlıq hərəkatları, müstəqillik çağırışları fransız əsgərlərinin çəkmələri altında qan içində boğulur. Bu müstəmləkələrdəki yerli əhali ən adi

Eyni zamanda, hər aksiyadan sonra Yeni Kaledoniyanın hava limanı bağlanır, məktəblərdə dərslər dayandırılır. Paytaxt Numeada fövqəladə vəziyyət və komendant saatı elan edilir. Parisdən adalar qrupuna polis qüvvələri yeridilib, əhaliyə qarşı zorakılıq və qəddarlıq halları baş verib.

məyə ehtiyac görməyənlər bunun əvəzinə müstəqil xarici siyasət yürüdən ölkələri hədəfə alırlar. Hələ Avropa Parlamentində bir dəfə də olsun Fransa hökumətinin dənizaşırı ərazilərdə yürütdüyü repressiv siyasət müzakirəyə çıxarılmayıb. Avropa İttifaqının digər qurumları da analoji mövqe



hüquqlardan məhrumdur. Təsəvvür edin ki, Mayot adaları əhalisinin, demək olar, yarısının doğum haqqında şəhadətnaməsi yoxdur. Fransız ordusunun Yeni Kaledoniyada törətdikləri isə yumşaq desək, Avropa "demokratiyası" adına açıq-aşkar ləkədir. Həmin bölgədə Parisin neokolonializm siyasətinə qarşı kütləvi etiraz aksiyasında yüzlərlə insan, o cümlədən 11 nəfər hərəkat fəalı siyasi mülahizələrinə görə həbs edilib. Etiraz aksiyasının yatırılması zamanı ölənlər də olub.

Xatırlatmaq yerinə düşərdi ki, Sakit okeanının cənubunda, Avstraliya və Fici adaları arasında yerləşən Yeni Kaledoniyada cəmi-cümlətanı 300 minə yaxın əhali yaşayır. Onların yalnız 40 faizi və ya 112 mini yerli kanaklardır. Bu adalar qrupu XIX əsrdən Fransanın nəzarətindədir. Son vaxtlar bu ərazidə baş qaldıran etirazlar keçən əsrin 80-ci illərindən bəri "ən pis iğtişaşlar" adlandırılır. 1998-ci il Numea sazişinə əsasən, Fransa əraziyə daha çox siyasi muxtariyyət verməyə razılaşıb. Əyalət və məclis seçkilərində də yalnız orada yaşayan yerli sakinlərin iştirakı barədə razılaşma olub. Lakin həmin vaxtdan bəri əraziyə 40 mindən çox Fransa vətəndaşı köçürülüb. Sazişə əsasən, bölgənin gələcəyi ilə bağlı üç referendumun keçirilməsi nəzərdə tutulsa da, Parisin saxtalaşdırmaları üzündən səsvermələr Fransanın tərkibində qalmaqla nəticələnib. 2021-ci ildə keçirilmiş sonuncu referendumun nəticələri isə bölgənin müstəqilliyi uğrunda mübarizə aparan ictimai-siyasi qüvvələr tərəfindən indiyədək tanınmır.

Son illərdə Fransa qanunvericiliyində Yeni Kaledoniyaya sonradan köçənlərə əyalət seçkilərində səsvermə hüququnun verilməsi ərazidə narazılıqları daha da artırıb. Hesab edilir ki, yeni dəyişiklik parlamentdə yerli kanakların səslərinin azalmasına gətirib çıxarır. Bu isə adalarda etirazları qızışdırır. Aksiyalar da, təbii ki, hər dəfə yerli əhali arasında ölüm və yaralanma, onlarca, bəzən yüzlərlə insanın həbsi ilə nəticələnir. Son belə aksiyalardan birində 200 nəfərə yaxın insan saxlanılıb.

Ticarət mərkəzləri, avtomobillər yandırılıb. Rəsmi Paris "iğtişaşçılara ən sərt cəzalar" veriləcəyini bəyan edib.

2024-cü ilin may ayında Yeni Kaledoniyada Fransadan müstəqillik tələb edənlərin etirazları başlanıb. Mayın 13-dən 27-dək davam edən etiraz aksiyaları zamanı polisin müdaxiləsi 10 nəfərin ölümünə səbəb olub. Bununla bağlı yayılmış məlumatlarda qeyd olunub ki, iyulun 10-da Yeni Kaledoniyanın cənubunda hüquq-mühafizə orqanlarının əməkdaşları 1 nəfəri öldürüblər. Bununla da, təxminən iki ay əvvəl arxipelaqda başlanan etirazlar zamanı ölənlərin sayı 10-a çatıb.

Etiraz aksiyası zamanı həbs edilmiş 11 fəal hazırda Fransada istintaq altındadır. Onlardan biri də Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının lideri Kristian Tendir. Numea şəhərində saxlanılaraq dindirilən digər 10 nəfər də Fransa təcridxanalarına aparılıb. Onlara qarşı cinayətkar birlik yaratma, quldurluq və vəzifəli şəxsləri öldürməyə cəhd maddələri ilə ittiham irəli sürülüb və istintaq aparılır.

Müstəqillik tərəfdarları əsasən Muluzdakı təcridxanaya yerləşdiriliblər. Yeni Kaledoniya Konqresi katibliyinin direktoru xanım Frederik Muliava isə Klermon-Ferrandakı həbsxanada saxlanılır.

Yeni Kaledoniyada həbs olunanlar arasında hərəkatın lideri Kristian Tenlə yanaşı, Brenda Vanabo, Frederique Muliava, Guillaume Vama, Joël Tjibaou, Yeva Vaetheane, Stev Une, Dimitri Tein Qenegei, Gilles Joredie var. Öldürülən şəxslər isə Rok Viktorin Vamytan və Nasaie Daoukadır.

Təəssüflər olsun ki, bütün bunlar barədə heç bir Qərb dövləti, beynəlxalq təşkilat danışmaq istəmir. Üzdəniraq Avropa Parlamentinin ermənipərəst deputatları Yanis Matiyatis, Şerban Sturza, Cordan Bardela, Mixael Blossom, Mari Tussan, eləcə də qurumun sosial hüquqlar üzrə komissarı Nikolas Şmit bir dəfə də səsini qaldırmayıb.

Yeni Kaledoniya və digər müstəmləkə bölgələrində yaşananlara münasibət bildir-

nümayiş etdirirlər. Ümumiyyətlə, bütün Aİ ölkələri insan haqları sahəsində kök salmış problemlərə, artan islamofobiya və ikrah doğuran neokolonial siyasətə, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda və "sarı gödəkçəlilər" kimi aksiyalarda həyatlarını itirməsinə göz yumurlar. Eləcə də, Yeni Kaledoniya və digər ərazilərdə aksiyaların qanla boğulması kimi hallara tam etinasızlığı və biganəlik hökm sürür.

Bunun əvəzində öz gözündə tiri görməyib başqasında çöp axtaran rəsmi Paris baş verənlərdə Azərbaycanı günahlandırmağa çalışır. Fransa Prezidenti Emmanuel Makron Yeni Kaledoniyadakı etirazları "görünməmiş üsyan" adlandıraraq, bunların "xarici təsirin nəticəsi" olduğunu bildirib.

Fransanın xarici işlər naziri Cerald Darmanen isə Fransa-2 telekanalına müsahibəsində qeyd edib: "Bu, fantaziya deyil... Təəssüf edirəm ki, bəzi müstəqillik tərəfdarı olan liderlər Azərbaycanla anlaşma ediblər".

Fransanın Avropa İttifaqı Parlament Assambleyasındakı deputatı François-Xavier Bellamy isə Azərbaycanı "Fransanı parçalamaqda" ittiham edib. O, özünün "X" hesabında yazıb: "Azərbaycan Yeni Kaledoniyaya "müdaxilədən sonra bu gün "dekolonizasiya" və "Fransa əsarətindən qurtuluş" üçün hazırlıqlar çərçivəsində Polineziyadan seçilmiş məmurları qəbul edir".

Hazırda Fransa hökuməti, prezident Makronun özü elə hesab edir ki, zorakılıq, qəddarlıq, həbslər və s. metodlarla, eləcə də şirnikləndirici vədlərlə yerli xalqları əsarət altında saxlamaqda davam edə biləcəklər. Amma yox, ox artıq yaydan çıxıb. Parisin sadiq müstəmləkə hesab etdiyi ərazilər daha əvvəlki qaydada yaşamaq istəmirlər. Ona görə Fransanın başı hələ çox ağrıyacaq.

*Paşa ƏMİRCANOV*
*XQ*

# REVANŞİSTLƏR xislətlərinə sadiqdirlər

(əvvəli 3-cü səhifədə)

Surenyantsın müşahidələrinə görə, danışıqlarda qeyri-müəyyənlik qalmaqdadır: "Ermənistan razılaşdırılmış 13 bəndi imzalamaq təklifindən geri çəkilir, yoxsa Azərbaycan mövqeyini yumşaldır? Mən Azərbaycanın mövqeyini yumşaltması üçün heç bir səbəb görmürəm. Azərbaycan güclü tərəfdir".

"Joxovurd" qəzeti isə dünənki sayında yazır ki, N.Paşinyan Kazandan qayıtdıqdan sonra "Mülki müqavilə" fraksiyasının deputatları ilə görüş keçirib. O, BRICS Sammiti çərçivəsində Azərbaycan Prezidenti ilə apardığı danışıqların nəticələrini təqdim edib. Nəşrin qeyd etdiyi kimi, iclas deputatların təşəbbüsü ilə keçirilib və onun işində nazirlər kabinetinin üzvləri də iştirak ediblər. Əvvəlcə Paşinyan çıxış edib, daha sonra parlamentarilər ona sərhədlərin delimitasiyası prosesi və Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi layihəsi ilə bağlı suallar veriblər. Görüş axşam saatlarına qədər davam edib. "Deputatların sözlərinə görə, Paşinyan onlara yeni heç nə deməyib. O, görüş iştirakçılarının hamısının bildikləri məsələlərdən danışıb" – deyə "Joxovurd" yazır.

Ümumiyyətlə, oktyabrın 25-də hər iki ölkənin əsasnaməni təsdiqləməsi xaotik şəkildə aktiv fəaliyyəti imitasiya etməyə başlayan Ermənistan müxalifəti üçün əsl şok olub. "Müqəddəs mübarizə" adlanan qondarma hərəkat "hər şey əldən gedir" şüarı ilə insanları küçələrə çıxarmağa çalışdı. Amma gözlənildiyi kimi, bu hərəkata qoşulanların sayı çox az oldu. Əhalinin dəstəyinin olmamasına baxmayaraq, revanşistlər yenə də iddia edirlər ki, hər şey əvvəldən belə planlaşdırılıb. Arxiyepiskop Baqrat Qalstanyan Ermənistan prezidentinin parlamentin təsdiq etdiyi reqlamenti artıq imzaladığı üçün bu hərəkətin gec olub-olmaması sualına cavab verərək deyib ki, onların hərəkətləri gecikməyib, vaxtında olub. Lakin onların hərəkətlərinin "vaxtında olması" Ermənistan cəmiyyətində müxalifətin populyarlıq dərəcəsinə adekvatdır. "Qarabağ klanının xaç atası" Robert Koçaryanın reytinqi 2 faiz həddindədir. Onun digər ortaqlarının reytinqi isə daha aşağıdır.

Politoloq Stepan Danielyan isə qeyd edib ki, İrəvan üçün geosiyasi "ağırçəkili" ölkələr arasından vasitəçilərin cəlb edilməsi faydalı olardı. Bu da təhlükəsizlik zəmanətlərinin alınmasına və Bakının təzyiqindən yayınmağa (?) kömək edərdi. Bu baxımdan o, regional "3+3" formatını Bakı ilə danışıqlar platforması kimi nəzərdən keçirməkdən imtina edən xarici işlər naziri Ararat Mirzoyanın mövqeyindən çaşdığını vurğulayıb: "Mən Ararat Mirzoyanın mövqeyini başa düşə bilmirəm, çünki ikitərəfli format, bu halda, yalnız Azərbaycana sərf edir. Yəni, uduzan tərəf həmişə danışıqlarda vasitəçilərin iştirakına can atır. Vasitəçilər və onların təminatları güc balansının pozulması şəraitində çəkindiricidir. Bu cür danışıqların nəticəsi əvvəlcədən müəyyən edilir. Güclülər hər zaman şərtləri diktə edəcək, zəif tərəf isə əsassız güzəştlərə gedəcək. Biz bunu Ermənistan–Azərbaycan danışıqlarında görürük".

Politoloq digər məsələlərlə yanaşı, baş nazir Paşinyanın sammitdə iştirakını əvvəlcədən müəyyən edən başqa bir amili də qeyd edib. Onun fikrincə, Paşinyan Kazana dəvətdən imtina edə bilməyib: "Dəvət birbaşa Rusiya Prezidenti Vladimir Putindən gəlib və biz görürük ki, Ermənistan hökumətinin başçısı Rusiya ilə münasibətləri daha da gərginləşdirməməyə çalışır. Bunun bir çox səbəbi var, amma əsas odur ki, biz Qərbdən heç vaxt alternativ təkliflər almamışıq".

Mövzu üzrə fikirlərini öyrəndiymiz **Qərbi Kaspi Universitetinin professoru, politoloq–diplomat Fikrət Sadıxov**



bildirdi ki, iki dövlət arasında delimitasiya məsələsi öz həllini tapmaq üzrədir. Onun sözlərinə görə, oktyabrın 25-də hər iki ölkənin liderləri Dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında əsasnaməni təsdiqləyiblər. Bu isə o deməkdir ki, bu məsələdə müəyyən mənada qarşılıqlı güzəştlər var: "Bu, müsbət bir addım, müsbət haldır. Bundan sonrakı vəziyyət bizim irəliləyiş əldə etməli olduğumuzu göstərir. Digər məsələləri də bu şəkildə həll etməliyik. Amma görünən odur ki, Ermənistanda Nikol Paşinyana, onun hökumətinə qarşı çıxışlar var. Revanşistlər, radikallar, eyni zamanda, parlamentdəki müxalifət qüvvələri, təbii ki, bunu qəbul etmək istəmirlər. Aydın məsələdir ki, bu, onların konkret mövqeyidir. Paşinyanın siyasətindən narazılıq var, onlar bunu açıq şəkildə bildirirlər. Amma onlar başa düşməlidirlər ki, burada digər çıxış yolu yoxdur. Yəni, onlar Azərbaycanla müzakirə aparmasalar, müəyyən razılaşma olmasa, deməli, prosesdə tərəqqi də ola bilməz. Ona görə də zənnimcə, müəyyən qüvvələr bunu qəsdən edirlər ki, ikitərəfli münasibətlərimiz elə pis olaraq da qalsın. Onlar başa düşürlər ki, əks-təqdirdə Paşinyanın rəhbərliyi altında atılan addımlar Azərbaycanla müəyyən sülhə gətirə bilər. Bu isə onları qane etmir. Onlar əllərindən gələni edirlər ki, buna qarşı çıxa bilsinlər".

F.Sadıxovun sözlərinə görə, digər reallıq bundan ibarətdir ki, Ermənistan əhalisinin əksəriyyəti hər halda Paşinyanın partiyasını dəstəkləyir: "Bu da onun üstünlüyüdür. Düşünürəm ki, Paşinyan daha iradəli olmalıdır. O, bundan istifadə edərək bu və digər məsələlərlə bağlı öz addımlarını cəsarətlə atmalıdır".

*Səxavət HƏMİD*
*XQ*

# Yelisey sarayı "sarı jiletlilər"ə niyə düşmən kəsilib?

**Rusdilli elektron media vasitələrini nəzərdən keçirərkən Parisin etirazlardan qurtula bilməyən küçələri, Emmanuel Makronun yarıtmaz siyasəti, "sarı jiletlilər"in bitməyən etirazları, Yelisey sarayının onlara düşmən kəsilməsi, dünyanın ən güclü dövlətlərindən birinin iqtisadiyyatının çökmək üzrə olması, beynəlxalq aləmin Fransa siyasətinə münasibətinə dair yeni məlumatlara rast gəldim.**



Diqqətimi cəlb edən ilk məlumat Fransa diplomatiyasına rəhbərlik edənlərdən birinin son günlərin ictimai-siyasi proseslərindən sonra dilə gətirdiyi acı etiraf oldu. Belə ki, "Regnum.ru" saytının oktyabrın 24-də yaydığı xəbərdə deyilir: "Fransa Xarici İşlər Nazirliyinin Avropa məsələləri üzrə nazir – nümayəndəsi (ministr-deleqat) Benjamen Xaddad LCI telekanalına verdiyi müsahibədə deyib: "BRICS-in Kazan Sammiti və ABŞ-dakı prezident seçkiləri sübut edir ki, Qərb Avropa da daxil olmaqla dünyaya nəzarət etmək imkanını itirib". Xatırladaq ki, fransız diplomat "itirir" yox, məhz "itirib" deyir.

O ki qaldı, "sarı jiletlilər" məsələsinə, deməliyik ki, 2020-ci ildə dünyanı COVID-19 pandemiyası bürüyəndə Fransanı həm də "sarı jiletlilər" hərəkatı başına götürmüşdü. Bu isə ölkənin yeni prezidenti Emmanuel Makronun həm 2017-ci ildə (seçkidən əvvəl) verdiyi vədlərin heç birini yerinə yetirməməsi, həm də xalqın rifahına zidd olan addımlar atmasına etiraz idi.

Rusiyalı həmkarlarımızın hazırladığı "Beynəlxalq həyat" jurnalı Fransadakı "sarı jiletlilər" hərəkatı barədə çoxsaylı materiallar vermişdir. Həmin materialların birində oxuyuruq ki, Makron iqtidarının öz vətəndaşlarına qarşı amansız münasibətini ən yüksək səviyyədə qınayan ölkə Birləşmiş Krallıq olmuşdur. "International Affairs" jurnalının siyasi şərhçisi Sergey Filatovun "Fransada "sarı jiletlilər"in şok statistikası" adlı məqaləsində (xatırladım ki, bu material yeni olmadığına görə, bəzi rəqəmlər dəqiq olmaya bilər) yazılır ki, fransızlar haqqında belə şeyləri ancaq ingilislər yaza bilərdi. Onlar "Sarı jiletlilər" hərəkatının az bilinən təfərrüatlarını açıqlayırlar: "Şok statistika Makron xaosunun dərinliyini ortaya qoyur – küçələrdə 50 min etirazçı var, 11 nəfər "sarı jiletli" ölüb".

Rus həmkarımız yazır ki, Britaniyanın "Express" nəşri fransız mətbuatının əhəmiyyət vermədiyi çox şeyi ictimaiyyətə açıqlayır: "Əbəs yerə deyil ki, bu yazınlarda fransızlar "LJ Hərəkatı" ("sarı jiletlilər" – İ.M.) haqqında ən çox məlumatı... fransız dilində fəaliyyət göstərən Rusiyanın RT telekanalından alırlar". Yaxud, başqa bir məlumat: "Fransa daxili işlər naziri Kristof Kastaner "sarı jiletlilər" böhranı zamanı 11 nəfərin öldüyünü bildirib. Hərəkat iştirakçılarından 2500 nəfər, o cümlədən 76 nəfər ağır yaralanıb. Həmçinin 1800-ə yaxın təhlükəsizlik qüvvəsi yaralanıb".

"Live Journal" isə yazır ki hərəkatın başlanmasından sonra Fransanın bütün şəhər və rayonlarında 50 min etiraz aksiyası keçirilib. Etiraz aksiyaları fransız sürücülərin avtomobillərində saxlamaları tələb olunan sarı qoruyucu gödəkçələrin adını daşıyır. Əslində, hərəkat ölkədə yanacağın qiymətlərinin artması səbəbindən başlamışdı. Lakin hökumətin və prezident Emmanuel Makronun iqtisadi siyasəti insanları daha çox narazı saldığına görə etirazların miqyası gündən-günə böyümüşdür.

İngilis ekspertin fikrincə, "Sosial böhran Makron iqtidarını təhdid etdi və onu yoxsul işçilərin, eləcə də, pensiyaçıların gəlirlərinin artırılmasına yönəlmiş 10 milyard avro (8,9 milyard funt sterling) dəyərində güzəştlər paketi təklif etməyə məcbur etdi. Lakin hərəkata dəstəyin azaldığını görən Makron ölkə həyatının iki mürəkkəb sisteminin – pensiya təminatı və işsizliyə görə müavinət sisteminin köklü şəkildə yenidən qurulmasını əhatə edən islahat proqramı haqqında göstəriş verdi və bu xalqın qəzəbini alovlandıra biləcək "partlayıcı məsələlərdir".

Yelisey sarayı etirazçıların tələblərini yerinə yetirmək əvəzinə, onları düşməncəsinə cəzalandırdığına görə hələ 1933, 1954, 1968-ci illərdən təməli qoyulan (yanacağın qiymətinin və vergilərin artması səbəbindən) iqtisadi məzmunlu etirazlar indi artıq siyasi məzmun da kəsb edir. "Sarı jiletlilər" in tələbləri arasında, həmçinin Fransanın Avropa İttifaqından, eləcə də NATO-dan çıxması ilə bağlı referendumun keçirilməsi də yer alır. Üstəlik, onlar Ukrayna və Yaxın Şərqdə münaqişəyə son qoyulmasını tələb edir, Ukraynaya hərbi qüvvələrin göndərilməsinə qarşı olduqlarını bildirirlər.

Bundan başqa, Fransada, az qala, hər həftə bir afrikalı, asiyalı və ya hansısa insan qətlə yetirilir. Biz orada müqəddəs dinimizin və Məhəmməd peyğəmbərin (s.ə.s) təhqir edilməsindən narahat olduğumuz günlərdə Parisdən xəbər gəlmişdi ki, bir rahib, kilsə xadimi qətlə yetirilib. Yəni bu ölkə belə idarə olunur. Necə deyərlər, "Ağası gülüm olanın başına külüm olsun". Ona görə də xəbər agentlikləri yazırlar ki, Fransada xalqın etirazları da bitib-tükənmir, hakimiyyətin etirazçılara yönəlmiş cəzaları da.

Yeri gəlmişkən, hamıdan danışdıqsa, Fransadakı bədbəxt həmkarlarımızın taleyini də yada salaq. Çünki Emmanuel Makronun rəhbərliyi dövründə bu ölkədə 200-ə qədər jurnalistə qarşı müxtəlif ayrı-seçkilik halları, həmçinin fiziki zorakılıq tətbiq olunub. Həmin jurnalistlər arasında nəinki Asiya və Afrikanın, hətta Avropanın da bir çox ölkələrinin mətbuat təmsilçiləri var. Bu isə o deməkdir ki, Makron iqtidarı azad medianın fəaliyyətini məhdudlaşdırmaqla Fransanın qeyri-demokratik ölkə olduğunu gizlətmir.

Nəticədə Emmanuel Makronun reytinqi getdikcə azalır. O isə reytinqinin qayğısına qalmaq əvəzinə, Ermənistanı silahlandırmaqla, Cənubi Qafqaza burnunu soxmaqla məşğuldur. Özü bilər. Biz ona yol göstərmək fikrində deyilik. Onsuz da, burnu sınanda dayanacaq.

*İttifaq MİRZƏBƏYLİ*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Lerikdə

## Çoban Xanışın ailəsində



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Lerikə səfəri zamanı bir vaxtlar ümummilli lider Heydər Əliyevlə şəxsi dostluğu ilə məşhurlaşan mərhum çoban Xanış Şahıyevin ailəsinə baş çəkib.**

Söhbət zamanı ümummilli lider Heydər Əliyevlə Xanış Şahıyev arasındakı səmimi dostluq, Prezident İlham Əliyevlə olan görüşlər xatırlanıb. Heydər Əliyevlə çoban Xanışın dostluğunu əks etdirən, müxtəlif görüşlərdən xatirə olan fotoalboma baxılıb.

Görüşdə, həmçinin ailənin şəhid övladlarının Vətən uğrundakı döyüşləri xatırlanıb.

Qeyd edək ki, Xanış Şahıyevin nəvələri Elgün və Altay qardaşları Vətən müharibəsi zamanı şəhid olublar. Onların əmiləri Camal və Hüseyn Şahıyevlər isə Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalıblar.

## Ağacəkmə aksiyasında

**Lerik rayonunda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə ağacəkmə aksiyası keçirilib.**



"Regional İnkişaf" İctimai Birliyi könüllülərinin qatıldığı aksiyada 500-dən çox çinar ağacı əkilib.

Monidigah kəndindəki ağacəkmə aksiyası "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ölkəmizdə yaşıllıq zolaqlarının artırılması və ətraf mühitin mühafizəsinə daha bir töhfə olub.

# Şəhid övladları "Təbiət üçün əl-ələ" veriblər



**Oktyabrın 26-da Çinin Azərbaycandakı səfirliyi, Heydər Əliyev Fondu və Xəzər Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Təbiət üçün əl-ələ" şüarı altında ağacəkmə aksiyası keçirilib. Zirə Mədəniyyət Mərkəzi Eko-Parkda təşkil olunan ağacəkmədə şəhid övladları da iştirak ediblər.**

Layihənin təşəbbüskarı, Milli Məclisin deputatı Soltan Məmmədov aksiyanın Azərbaycanda keçiriləcək COP29 konfransına dəstəyin və ümumilikdə təbiətin qorunması ilə bağlı təşəbbüslərlə həmrəyliyin ifadəsi olduğunu vurğulayıb: "Bu aksiyaya cəlb olunan uşaqların ataları Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçərək, həm də uzun illər ərzində ekosidə məruz qalmış böyük bir bölgəni ekoloji fəlakətdən xilas ediblər. Ona görə də bu uşaqların belə bir aksiyada iştirakı xüsusi məna daşıyır. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr içərisində ən önəmlilərdən biri şəhid ailələrinə dəstəkdir. Əminəm ki, bu tədbir bizim bir-birimizlə təmasımızı artıracaq".

Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao belə nəcib təşəbbüslərə dəstək olmaqdan məmnunluğunu ifadə edib. Ətraf mühitin qorunması və ekoloji problemlərin həllində gənclərin fəal iştirakının mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb: "COP29 ərəfəsində belə bir təşəbbüsün həyata keçirilməsi isə xüsusi əhəmiyyət kəsb edir. Aksiyada iştirak edən uşaqlara təhsillərinə xüsusi önəm verməyi, bilik və bacarıqlarını daim təkmilləşdirməyi, dünyamıza fayda verəcək daha yaxşı kadrlar kimi yetişməyi arzulayıram".

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı əsasında qeyd olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil edilən bu aksiya təbiətə qayğının nümunəsi olmaqla yanaşı, şəhid ailələrinin daim diqqət mərkəzində olduğunun göstəricisidir.

Milli Məclisin deputatı Günay Əfəndiyeva, Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bu cür təşəbbüslərin cəmiyyətdə ümumi maraqlarla bağlı məsələlər ətrafında həmrəyliyə mühüm töhfə verdiyini vurğulayıblar.



Aksiyada iştirak edən şəhid baş gizir Mirzə Axundovun qızı Zərifə Axundzadə həm maraqlı vaxt keçirdiyini, həm də yeni dostlar qazandığını deyib. Ağacəkmə aksiyasının iştirakçıları arasında olan və bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında Xəzər rayonu üzrə ən yüksək bal toplayanlar Hüseyn Zeyqəm və Aydan Xanəhmədli gənclərin cəmiyyətin aparıcı qüvvəsi olduğunu və ölkəmizin inkişafı naminə böyük işlər görə biləcəyini qeyd ediblər.

Tədbirin sonunda Heydər Əliyev Fondu, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyi adından şəhid övladlarına hədiyyələr təqdim olunub. Tədbir çərçivəsində, həmçinin şəhid övladlarına "Vəhşi robot" cizgi filmini izləmək imkanı yaradılıb.

***XQ***

# Avropa İttifaqına notamız – AP-ni ayağınıza bağlayın!

**(əvvəli 1-ci səhifədə)**

Bəli, AP növbəti dəfə ölkəmizi, belə demək mümkünsə, qərəz atəşinə tutdu. Əslində, bunun baş verəcəyi gözlənilən idi. Çünki qurumda Azərbaycanda insan haqlarının vəziyyəti və Bakı–İrəvan münasibətlərinə dair müzakirənin aparılacağına dair press-reliz özlüyündə hər şeyi deyirdi. Sənəddə vurğulanırdı ki, Ermənistan və Azərbaycan ötən il Bakının hərbi hücuma keçməsi, Qarabağı ələ keçirməsi və 100 minə yaxın erməninin bölgəni tərk etməsinə səbəb olan, onilliklərlə davam edən münaqişənin bataqlığındadır: "Avropa Parlamentinin üzvləri buna görə də əsassız hərbi hücumu beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qətiyyətlə pisləyib və Aİ-ni Azərbaycanla, o cümlədən, enerji sahəsində münasibətlərinə yenidən baxmağa çağırıblar".

Göründüyü kimi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi



Ancaq digər məqamlar da var. Ümumən, kollektiv Qərb Azərbaycanla münasibətlərin beynəlxalq hüququn norma və prinsipləri, qarşılıqlı hörmət, bərabərhüquqluluq və ümumi fayda prinsipləri əsasında qurulmasını arzulamır, fundamental prinsipləri heçə sayır. Məhz bu səbəbdən erməni avantürizmini diri saxlamaq niyyəti güdür. İstəyir ki, avantürizmin köməyi ilə Azərbaycana təzyiq rıçaqları qazansın. Axı otuz ilə yaxın müddətdə belə bir yol tutub. Ona görə də ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ağır daşdır. Daş Qərbin boynundan asılıb. AP-nin "qətnamə məntiqi" və digər bu sayaq sərsəm gedişlər isə ağırlığı aradan qaldırmaq yönümlü fəaliyyətdir. Əlbəttə, ortada Avropa demokratiyası adına son dərəcə rəzil durum var. Çünki bəşəri dəyər və prinsiplər bir qrup ermənipərəstin əlində oyuncağa çevrilib. Bu qrup həmin dəyərlərin, obrazlı desək, boynuna ip salıb onları təhqir etməklə və aşağılamaqla məşğuldur.



AP-nin ermənipərəstlərini narahat edir və onlar vaxtaşırı ölkəmizə qarşı hədyan yağdırmasalar dayana bilmirlər. Bu, az qala, patalogiya halını almış xəstəlikdir. Nəzərə alsaq ki, gələn ay Azərbaycan mötəbər tədbirə – COP29-a evsahibliyini gerçəkləşdirəcək, deməli, xəstəliyin yeni təzahür formalarının işə düşməsində qeyri-adi heç nə yoxdur.

Beləliklə, AP-də oktyabrın 22-dən başlanmış Azərbaycanda insan haqlarının vəziyyəti və Bakı–İrəvan münasibətlərinə dair müzakirələr qətnamənin çıxarılması ilə nəticələndi. Guya ki, qurumdakılar iki gün çalışdılar. Əslində, mənasız yerə toplaşıb Fransada hazırlanmış mətni üzündən oxudular, bir-iki ermənipərəst də çıxış edərək, öz aləmində, ciddilik fonu yaratdılar. Kişilər iş gördülər. Kişi də deyirik, ehtiyatlanırıq ki, xətirlərinə dəyər. Çünki pensioner geylərin bir yerə toplaşaraq, yaratdıqları klubun təmsilçiləri bu sayaq müraciət formasına alışıq deyillər.

Qəribə vəziyyət yaranıb. Bir tərəfdə Azərbaycan və Ermənistan liderləri görüşüb sülh barədə müzakirə aparırlar, digər yanda isə AP Azərbaycanı qınayır, elə təəssürat yaradır ki, sanki ölkəmiz barış mühitinin formalaşmasına razı deyil. Qurum başlıca vurğunu Bakı ilə İrəvan arasındakı münaqişənin sona çatmaması üzərinə qoyur. Bu, adi bir mesaj deyil. AP-dəkilər konfliktin hələ də davam etməsi görüntüsünü formalaşdırmaq niyyəti güdürlər. Axı münaqişənin sona çatması onlara sərfəli deyil. Sərfəli deyil ki, beynəlxalq hüquq prinsiplərini görməzdən gəlir, Qarabağın Azərbaycan olması reallığını qəbul etmir və beynəlxalq ictimai rəyə bu sərsəm düşüncəni aşılayırlar.

Olmazmı ki, AP-dəkilər dövrün həssaslığını nəzərə alıb susaydılar? Əlbəttə, olmaz, çünki onlara təlimat verib üstümüzə salanların sülhlə bağlı öz gözləntiləri var. Vurğuladıq ki, bu gözlənti barış mühitinin yaranmasının qarşısı almağa hesablanıb. Ona görə də Azərbaycan XİN səfir Mixalkonunun diqqətinə bunu çatdırır: Aİ-nin müxtəlif institutları vasitəsilə ölkəmizə qarşı qarayaxma kampaniyasının davam etdirilməsi, suverenliyimizə və ərazi bütövlüyümüzə qəsd edən, daxili işlərimizə müdaxilə edən bəyanat və addımları Ermənistanda revanşizmi təşviq edir, regionda sülh səylərinə xələl gətirir.

Mənzərə nəinki rəzildir, eyni zamanda, son dərəcə miskindir.

Bəli, Azərbaycan XİN Avropa İttifaqından Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozan, daxili işlərinə müdaxilə mahiyyətli, regionda sülh və sabitliyə xələl gətirən qərəzli addımlardan çəkinməyi tələb edib. Görəsən, ölkəmizin tələbinə düzgün yanaşılacaqmı? Bu barədə nə isə demək çox çətindir. Çünki keçmişin təcrübəsi var. Əbəs yerə AP-nin Azərbaycanla bağlı "qətnamə məntiqi"nin mövcudluğunu vurğulamadıq. İndiyədək bu qoca korrupsioner və rüşvətxor "geylər klubu" min cür oyundan çıxıb, "Köhnə qitə"nin erməni lobbi və diaspor təşkilatlarından aldıqları "haqları" doğrultmaq üçün ən ağlagəlməz metodlara əl atıblar.

COP29 yaxınlaşdıqca belələrinin daha da azğınlaşacağı, bu tədbir xüsusunda qoparılmış anti-Azərbaycan tozunu ciyərlərinə çəkəcəkləri proqnozlaşdırılır. Axı üfunətli orqanizmləri ilə çirkabsız qalanda özlərinə yer tapa bilmirlər. Zamanında onlar Aİ-ni və üzv dövlətləri "Qarabağda atəşkəs rejiminin və insan hüquqlarının çoxsaylı pozulması hallarına görə" Azərbaycanın, guya, məsuliyyət daşıdığını da bildirmişdilər. Bundan başqa, Aİ-nin Xarici Siyasət üzrə ali nümayəndəsini "Qarabağın erməni əhalisinin hüquqlarına və təhlükəsizliyinə hörmətlə yanaşmağa həqiqi iradə nümayiş etdirənə" qədər, Azərbaycanla tərəfdaşlıq sazişinin yenilənməsi üzrə danışıqları dayandırmağa çağırmışdılar. 2024-cü il yanvarında AP-nin Brüsseldəki binasında "Dağlıq Qarabağın mədəni və dini irsinin qorunması" adlı konfransın təşkili və orada Qarabağdakı mədəni və dini irslə bağlı ənənəvi erməni tezislərin təkrarlanması da eyni məkrli ssenarinin davamıdır.

Sonda onu da deyək ki, Ermənistan hakimiyyəti ilə xaricdəki ermənipərəst anti-Azərbaycançı qüvvələr müştərək "fəaliyyət" içərisindədirlər. Bunu sübuta yetirən yüzlərlə fakt var. Əminliklə bildirə bilərik ki, hazırda AP-də çıxarılmış qətnamənin, necə deyərlər, bir ucu İrəvana çatır. Deməli, erməni iqtidarı riyakarlıq edir. Bir yanda sülhə hazır olduğunu deyir, digər tərəfdə isə Azərbaycana qarşı çıxır. Elə həm də bu səbəbdən ona güvən və etibar yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

Tarixin ən böyük metro qəzası

# 1995-ci ilin qara payızı



(əvvəli 1-ci səhifədə)

## Məktəb həyatində görüş

Günəşli, sakit payız günüdür. Paytaxtımızdakı 20 saylı məktəb-liseyin girəcəyində dayanıb ətrafı seyr edirəm. Bu təhsil ocağı Bakının ən böyük orta ümumtəhsil məktəblərindəndir. Məktəbin həyatində geniş meydança var. Xüsusi məktəbli forması geyinən şagirdlər dərsə tələsirlər. Bir azdan



Dövlət Himnimiz səsləndiriləcək və uşaqlar o möhtəşəm musiqinin sədaları altında sayğı duruşu üçün sıralanacaqlar.

Məktəbin giriş qapısına yaxın vurulmuş mərmər lövhəyə baxıram. O lövhədən hərbi geyimli cavan bir oğlan sanki mənə baxır və elə bil indicə nəsə deyəcək. Baş leytenant da sanki bu xoş payız səhərinə görə sevinir və məktəbliləri salamlayır. Mərmər üzərində bu sözlər yazılıb: “Azərbaycanın Milli Qəhrəmanı Çingiz Adil oğlu Babayev bu məktəbdə təhsil almışdır”.

Məktəbin həyatində təlim-tərbiyə işləri üzrə direktor müavini Rövşən Şirinov şagirdləri salamlayır və onların bəziləri ilə söhbətləşir. Görüşümüzün məramını Rövşən müəllimə bildirdim.

O, dedi:

– Doğrusu, əvvəllər, demək olar ki, hər il 1995-ci ildə baş verən metro qəzası ilə bağlı tədbirlər keçirmiş, məktəbimizin məzunu olmuş baş leytenant, Milli Qəhrəman Çingiz Babayevi, kursantlar – Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərovu, eləcə də faciə zamanı həlak olmuş soydaşlarımızı ehtiramla yad etmişik. Həmin xatirə tədbirlərində qəhrəmanların valideynləri və digər əzizləri də iştirak ediblər. Yəqin bilirsiniz ki, daha bir məzunumuz Arif Hüseynzadə idi. Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb və hazırda təhsil ocağı onun adını daşıyır.

Son illər bütün şəhidlərimizi Anım Günündə və Zəfər bayramında ehtiramla yad edir, müxtəlif tədbirlər və görüşlər keçiririk.

## Daha bir qanlı şənbə

“Bakı Soveti” (indiki “İçərişəhər”) stansiyasına doğru istiqamət götürən qatarın sərnişinləri özləri də bilmədən “ölüm reysi”nə bilet almışdılar. İş günü yenicə başa çatdığından vaqonlar dolu idi. Vaqonların birində yaşlıların çoxu oturduqları yerdə mürgü vururdular. Vaqonun qapısı ağzında bir neçə gənc deyib-gülür, qarşıdakı imtahandan danışırdı. Qapı ağzında dayanmış bir oğlan sevdiyi qıza nəyisə izah edirdi. Gənc ananın qucağındakı balaca qız şıltaq hərəkətləri ilə ətrafdakıları özünə cəlb edirdi.

Sərnişinlər arasında Cəmşid Naxçıvanski adına Bakı Hərbi Məktəbinin (indiki hərbi liseyin) kursantları da vardı – Samir Məmmədov, Ruslan İsayev, Nicat Səfərov. Onlar hərbi məktəbin bölük komandirinin siyasi-tərbiyə işləri üzrə müavini, baş leytenant Çingiz Babayevlə eyni vaqonda gedirdilər. Gənclər bir neçə gün aralı düşdükləri əzizləri, məhəllə dostları və sabahkı istirahət günü barədə düşünürdülər. Baş leytenant arabir onlara göz yetirir, öz kursantları ilə fəxr edirdi. Çünki onların hər üçü yaxşı oxuyur, komandirlərin verdiyi tapşırıqları layiqincə yerinə yetirirdilər.

Qatar növbəti tunelə yenicə girmişdi. Qəfil gurultu qopdu. Hamı bir anlığa vahimə içində donub qaldı. Sonra qadınların və uşaqların qışqırığı başladı. Kimsə bərkdən deyirdi: “Qatar yanır, qatar yanır!”

Az keçmədi ki, qatı qara tüstü vaqonu bürüməyə başladı. Baş leytenant Çingiz Babayev kursantlara səsləndi: “Kömək edin, qapıları açaq...”

Sonra var gücü ilə yanındakı qapını açmağa çalışdı. Bacarmadı. Kimsə ona kömək etdi və bundan sonra qapının bir layını azca araladı və ayağını oraya saldı. Kürəyini qapıya dayayıb hər iki layı açdı. Vaqona tunelin rütubətli havası axdı. O, vaxt itirmədən: “Tunelə tökülün!” - deyə qışqırdı.

Samir, Nicat, Ruslan da ona köməyə gəldilər. Onlar qapını bərk-bərk tutub sərnişinlərin tunelə düşməsinə kömək etdilər. Baş leytenant boşalmaqda olan vaqonda ora-bura vurnuxur, tüstüdən boğulanları çəkib tunelə salırdı. Boğucu tüstü artıq onu da əldən salmışdı. Lakin o vaqonda kimsənin qalmaması üçün var gücü ilə çalışırdı. Saniyələr keçdikcə tüstünü alovun qırmızı dilləri əvəz edirdi. Komandir axırıncı dəfə kursantlara tuneldə hərəkət edə bilməyənləri tez aradan çıxarmaq tapşırığı verdi. Özi isə digər vaqonlarda qışqıranları xilas etmək üçün geri döndü.

Bu an kursantlardan biri qışqırdı: “Komandir, qayıdın, daha nəfəs almaq olmur!” Onlar baş leytenantın bu sözləri eşidib-eşitmədiyini yəqin edə bilmədilər. Ruslan bir azdan özünün yıxıla biləcəyini hiss edib körpəni yanındakı dolu bədənli kişiyə verdi və tunelin dəmir örtüyünə söykənərək huşunu itirdi... Ölüm kabusu bu yeraltı dünyanın sərnişinlərini addım-addım izləyirdi. İşıqlı dünyaya isə hələ uzun və üzücü yol qalırdı...

Azərbaycan Prezidentinin 3 noyabr 1995-cı il tarixli, 506 saylı fərmanı ilə 1995-ci ilin 28 oktyabrında baş vermiş faciə zamanı xüsusi cəsarət və qəhrəmanlıq göstərərək həlak olmuş baş leytenant Çingiz Adil oğlu Babayevə (2 oktyabr 1964-ci ildə Bakı şəhərində dünyaya gəlib) Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Kursantlar 15 yaşlı Nicat Mürvət oğlu Səfərov, 17 yaşlı Ruslan Məmməd oğlu İsayev və Samir Nadir oğlu Məmmədov “İgidliyə görə” medalı ilə təltif olundular.

## Qapı bağlı qalmışdı...

Bir müddət əvvəl dostlarımdan birinin atasının dəfnində iştirak edirdim. Həmin qəbiristanlıqda iri mərmər baş daşı dəfndə iştirak edənlərin çoxunun diqqətini çəlb elədi. Qara mərmər üzərində bir ailənin şəkli öz əksini tapmışdı – 5 nəfər idilər. Dəfn başa çatdıqdan sonra həmin ailənin ruhuna da dualar oxundu. Kimsə danışdı ki, bu ailə Rusiyada yaşayırmış. Oradakı mənzillərini satıb Bakıda ev alıblar. Evə köçdükləri günün səhəri Bakını gəzmək üçün metroya minib “Bakı Soveti”nə (indiki “İçərişəhər”ə) gedirlərmiş. Qara payızın ölüm küləyi onları da metroda yaxalayıb və ailənin bütün üzvləri həlak olub. Bircə gecə rahat yatdıqları mənzilin qapısı illərlə bağlı qalıb...

## Bu, əsl cəhənnəm idi...

“Ulduz” stansiyasının ovaxtkı və hazırda Cəfər Cabbarlı stansiyasının rəisi Şaiq Heydərov deyir ki, o dəhşətli faciəni yenidən xatırlamaq mənim üçün çox ağırdır. Çünki həmin dəqiqələri göz önünə gətirəndə sarsılıram... 27-ci marşrut gəlib stansiyanın ikinci yolunda dayandı. Qatar sərnişinləri götürüb tunelə, təxminən, 100 metr girəndən sonra partlayış səsi eşidildi. Sonra alışma və yanğın oldu. Partlayışdan sonra artıq stansiyada aləm bir-birinə qarışdı.

Həmin vaxt əvvəlcə tez gərginliyi ayırdıq. Dəhşətli hadisə idi, ancaq özümüzü itirməyib həmin yerə qaçıb sərnişinləri xilas etməyə başladıq. Hadisə baş verəndən sonra stansiyada heç kəs qalmamışdı. Partlayışın səsindən, yanğından hamı qaçmışdı bayıra.

Baş leytenant Çingiz Babayev baş verən yanğına və partlayışa baxmayaraq, yaralılara kömək etmək üçün mənə yaxınlaşdı. Onun yanında bir kursant da vardı. Onlarla birgə cəld tunelə düşdük və bir istiqamətdə onlar, digər istiqamətdə mən getdim. Yanğın baş verən hissədə əlimiz çatan, çıxara biləcəyimiz bütün sərnişinləri çıxardıq...

Qeyd edək ki, Ş.Heydərov hadisədən sonra psixoloji travma alıb və uzun müddət müalicə olunub: “Ölən və yaralı o qədər idi ki…Vaqonlarda qalan digər sərnişinləri Nərimanov rayon Polis İdarəsinin işçiləri gəlib çıxardılar. Hadisədə “Koroğlu” stansiyasının növbətçisi və “Xətai” stansiyasından iki əməkdaş, həmçinin depoda olan bir neçə metro işçisi də həlak olmuşdu. Yanğın baş verdiyindən qatı tüstü var idi. Hadisə zamanı mən də zəhərlənmişdim. Sonra psixoloji sarsıntı yaşadım və 6 ay müalicə aldım. İndi də tunelə düşəndə hər küncdə yatan meyitlər gəlir gözümün önünə”.

Ş.Heydərov onu da əlavə etdi ki, hadisədən sonra metrodakı işindən ayrılanlar da oldu. Hadisənin şahidi olan Akif adlı bir polis işçisi var idi. O hadisədən sonra metrodakı işindən ayrıldı. Həmişə deyirdi ki, gördüklərimdən sonra burada işləyə bilmərəm...

## O, xeyirxahlıq üçün doğulmuşdu

Çingiz Babayevin atası Adil müəllimlə illər əvvəl eyni nazirlikdə işləmişik. Ucaboy, təmkinli insan idi. Mən gənc olsam da, arabir nahar fasiləsində “Cıdır meydanı”nın qarşısındakı meydançada gəzişərdik. 95-ci ilin qara payızından sonra bir dəfə zəngsiz-filansız Adil müəllimin evinin qapısını döydüm. Yeganə oğlunun həlak olması onu yaman üzmüşdü...

Bir gün yenə Adil müəllimgilə getmişdim. İlk baxışda mənzildə məni cəlb eləyən Milli Qəhrəman Çingizin və onun yanında qara haşiyəli çərçivədə Adil müəllimlə ömür-gün yoldaşının birgə şəkilləri oldu.

Adil müəllimin qızı Aida xanım kövrəlmişdi. Mən isə Çingiz haqda sual verməyə tələsmirdim. Daha doğrusu, söhbətə necə başlayacağımı düşünürdüm. Yaxşı ki, söhbətə Aidə xanım özü başladı:

– Bir qardaş, bir bacı idik. Məndən 7 yaş böyük idi. Bacı-qardaşlıqdan əlavə, həm də dost kimi idik. Nə sirri olsaydı, əvvəlcə mənə deyərdi. Nəcib, xeyirxah, vətənsevər insan idi. Dostları, zabit yoldaşları, kursantları və digər tanışları da həmişə onun haqqında xoş sözlər deyirdilər.




Çingiz cəbhəyə könüllü getmişdi. Nümunəvi xidmətinə görə neçə il sonra onu “N” saylı hərbi hissəyə qərargah rəisi göndərmişdilər. Sonra da hərbi məktəbə təyinat verdilər. Atam kimi ucaboylu, yaraşıqlı zabit idi. O, sanki məktəbi, kursantları ilə nəfəs alırdı. Arabir məni də hərbi məktəbə aparırdı. Orada zabit yoldaşları, kursantlar qardaşıma hörmətlə yanaşırdılar. Mən qardaşımla fəxr edirdim.

Bir qış günü Bakıya bərk qar yağmışdı. Onda Çingiz Politexnik İnstitutunda tələbə idi. Biz axşam məhəlləmizdəki balaca bağa qartopu oynamağa çıxmışdıq. Gördük ki, yaşlı bir kişi qarın içində uzanıb qalıb. Çingiz dedi ki, mən bu kişini tanıyıram, riyaziyyatçı-alimdir, yaxşı da şahmat oynayır. Tək yaşayır, son vaxtlar da içkiyə qurşanıb. Dostu ilə kişini qaldırıb, üst-başını təmizlədilər və evinə apardılar.

Qardaşım haqqında o qədər şirin xatirələrim var ki... Hər biri yadıma düşəndə xəyallar məni xoşbəxt günlərimizə aparır. Atam, anam, qardaşım və mən süfrə başında oturub nahar edə-edə gördüklərimizdən, oxuduqlarımızdan danışardıq...

Mən inanıram ki, Çingiz o qəzadan sağ çıxsaydı belə, yenə hansı məqamdasa həyatını insanlar üçün, Vətən üçün qurban verərdi. Çünki o, sanki, xeyirxahlıq və qəhrəmanlıq üçün doğulmuşdu...

Aida xanım danışdıqca mən yenə Çingizin işıqlı və məğrur çöhrəsinə baxırdım. Həmin anda mənə elə gəldi ki, o baxışları ilə bacısını ovutmağa çalışır.

## Nadir kişinin indi nəvə Samiri var

Qəhrəman kursant Samir Məmmədovun atası Nadir kişi uzun illər A.Allahverdiyev adına Gəmi Təmiri Zavodunda işləyib. Hazırda 20 saylı məktəbdən yuxarıdakı məhəllədə yaşayır. Bir dəfə qardaşımgilə gedərkən o həyətdə Nadir kişi ilə rastlaşdıq. Yanında cavan bir oğlan vardı. Dedi ki, Kamilin oğlu Samirdir. Samir bizdən ayrılıb evə qalxdı.

Nadirlə xeyli söhbətləşdik. O, bildirdi ki, oğlumun qırxında bir balacaboy kursant mənə yaxınlaşıb dedi ki, əmi, Samir olmasaydı, yəqin ki, indi mən yaşamırdım. Onun dediyinə görə, yanğın başlayan kimi Samir vaqonun pəncərəsini təpiklə sındırıb və onu qucağına götürüb, sonra tunelə atıb. Arxasınca da qışqırıb ki, aşağıda qocalara, qadınlara kömək ol.

Mən o kursantdan soruşdum ki, bəs Samir niyə səninlə gəlmədi. O, dedi ki, sən oğlunu tanımırdın, o heç vaxt başqalarını o dəhşətin içində qoyub gəlməzdi. O belə oğlan idi...

Aldığım məlumata görə, o qatarda 24 kursant olub. 21 nəfəri güclü zəhərləndiklərindən xəstəxanada müalicə alıblar, 6 ay öskürəkləri kəsməyib.

## Onları unutmayaq

Metro faciəsindən bir həftə sonra Naxçıvandan Bakıya uçan TU-134V təyyarəsinin qəzaya uğraması nəticəsində 51 soydaşımız həyatını itirdi...

95-ci ilin qara payızından 29 il ötür. O illərdə itirdiyimiz insanlar haqda düşünəndə, metro faciəsində və təyyarə qəzasında həlak olmuş çoxsaylı soydaşlarımızı da xatırlamaq, onların ruhuna dualar oxumaq xoş olar. Allah onlara rəhmət eləsin, ruhları şad olsun! Qoy, Uca Yaradan xalqımızı belə qara payızlardan hifz eləsin!

***Səməd MƏLİKZADƏ***
***XQ***

Zəfər marafonunun 31 və 32-ci günləri

# Vətən müharibəsinin xronikası: 27–28 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**



• Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də bir T-72 tankı, dörd D-30 və üç D-20 topu, bir “Osa-AKM” ZRK, bir BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, bir radiolokasiya stansiyası və altı avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı jurnalistin – “Yeni sülh barışığı, bu yeni atəşkəs qüvvədə olacaqmı?”– sualına cavabında bildirib: “Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq. Ona görə ki, ilk iki atəşkəs məhz Ermənistan tərəfindən pozulub. Humanitar mülahizələrə əsaslanan birinci atəşkəsdən sonra 24 saat ərzində Ermənistan atəşkəsi pozdu. Özü də vəhşicəsinə, gecə vaxtı Gəncə şəhərinə ballistik raket atmaqla. Birinci atəşlər nəticəsində 10 nəfər həlak oldu, xeyli insan yaralandı. Sonra onlar daha bir dəfə, yenə gecə vaxtı Gəncəyə zərbə endirdilər. Bu dəfə qurbanların sayı daha çox oldu. Ona görə də biz cavab verməyə məcbur idik.

İkinci atəşkəsə gəldikdə isə bizdə atəşkəsin Ermənistan tərəfindən pozulmasının xronologiyası var. Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Bu gün saat 08:00-dan yeni atəşkəs qüvvəyə minib. İndi Bakıda səhər saat 10:00-dır. Saat 8-dən, təxminən, 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu, davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq”.

• Düşmənin silahlı birləşmələri Goranboy və Bərdə rayonlarını müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutub. Bu xain hücum nəticəsində ilkin məlumata görə, Bərdə rayonunun Qarayusifli kəndinin sakinləri Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı və yeddi yaşlı İsgəndərova Aysu Rövşən qızı həlak olub, yeddi nəfər isə xəsarət alıb. Prokurorluq əməkdaşları tərəfindən zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan ordusunun Bərdə rayonunu raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı dördə çatıb.

• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib.

• Azərbaycan Ordusunun düşməndən qənimət götürdüyü tanklar təmirdən sonra yenidən döyüşə göndərilir.

• Ermənistan humanitar atəşkəs rejimini pozaraq Tərtər şəhərini və rayonun kəndlərini ağır artilleriyadan və “Smerç” yaylım atəşli reaktiv sistemindən atəşə tutub.

• ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər.

## Müharibənin 32-ci günü

• Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Bərdə şəhərini “Smerç” yaylım atəşli reaktiv sistemindən atəşə tutub. İlkin məlumata görə ölənlər və xəsarət alanlar var.

• Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.Bu barədə Prezident İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində etdiyi paylaşımda bildirib.

• Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində məlumat verib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

• Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibə verib.

• Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb, Ermənistan



silahlı qüvvələri itki verərək geri çəkilib. İşğalçı ordunun xeyli sayda canlı qüvvəsi, eləcə də bir ədəd “Osa” zenit raket kompleksi, üç ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, altı ədəd D-30, beş ədəd D-20 və bir ədəd D-44 topu, iki ədəd 2A36 “Qiasint-B” topu, bir ədəd 120 mm minaatan, bir ədəd “Konkurs” tank əleyhinə raket kompleksi və altı ədəd avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlər zamanı düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatın videogörüntüsünü paylaşıb.

• Azərbaycan Ordusunun bölmələri şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini, xeyli sayda hərbi texnikasını darmadağın edib.

• Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyərək döyüş meydanından qaçan düşmən qüvvələri, mülki infrastrukturu və dinc əhalini atəşə tutan şəxsi heyət bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

• Ermənistan ordusunun Bərdəni raket atəşinə tutması nəticəsində həlak olanların sayı 21-ə çatıb.Bu barədə Baş Prokurorluq məlumat yayıb.

***XQ***

# Azərbaycanın TDT-də texnoloji əməkdaşlıq təşəbbüsü

**İstanbulda keçirilən və Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Şimali Kipr Türk Cümhuriyyətinin təmsil olunan Türk Dövlətləri Təşkilatı üzvlərinin Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin Birinci Toplantısında qardaş ölkənin sənaye və texnologiya naziri Mehmet Fatih Kacır çıxışı zamanı ilk dəfə keçirilən bu tədbirin TDT əməkdaşlığının təməli olduğunu vurğulayıb.**



Mehmet Fatih Kacır böyük sınaqlardan keçilən bu dövrdə ən böyük dayağın ortaq tarix, dil, mədəniyyət olduğunu, Türkiyənin Türk dünyası arasında əməkdaşlığın genişlənməsindən məmnunluq duyduğunu qeyd edib: "Ortaq fəaliyyətimiz həm də yaranan bütün çətinliklərdən birgə çıxmağımıza dəstək verəcək ən böyük amildir. Əsas hədəf hər gün dəyişən və yenilənən dünyada ölkələrimizi birlikdə daha da gücləndirmək və inkişaf etdirməkdir. Bu gün təməli atılan bu birlikdən, sadəcə, dövlət strukturlarımız deyil, özəl sektor da faydalanacaq".

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov TDT ölkələrinin Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin növbəti toplantısının Azərbaycanda keçirilməsi ilə bağlı təklif irəli sürüb. Təklif iştirakçı ölkələr tərəfindən qəbul olunub.

Toplantıda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın türk dövlətləri ilə əməkdaşlığını prioritet istiqamət olaraq qiymətləndirdiyini, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində bütün platformalarda yaxınlaşmanı təmin edən təşəbbüsləri dəstəklədiyini bildirib. Nazir daha sonra deyib: "Bugünkü görüşümüzün mövzusu olan ölkələrimizin sənaye, elm, texnologiya və innovasiya sahəsində əməkdaşlığı türk dövlətləri arasında iqtisadi işbirliyinin təməl sütunlarını təşkil edir. Bu sahələr arasında qarşılıqlı fəaliyyətin yaratdığı sinerji texnoloji tərəqqiyə dəstək verməklə dayanıqlı iqtisadi artımda əvəzsiz rol oynayır".

M.Cabbarov əlavə edib ki, neft və qaz resursları ilə zəngin olan Azərbaycanın qarşılaşdığı əsas çağırışlardan birinin də bu resurslardan əldə olunan gəlirləri iqtisadiyyatın şaxələnməsinə yönəltməkdir. Bu baxımdan qeyri-neft sənayesinin inkişafı və bu inkişafa təkan verən əlverişli ekosistemin yaradılması iqtisadi siyasətin diqqət mərkəzindədir. Təbii ki, sənayeləşmə siyasəti dayanıqlı olmalı, qlobal çağırışlara və tendensiyalara adekvat cavab verməlidir.

Nazirin sözlərinə görə, ölkəmizin evsahibliyi edəcəyi COP29 konfransı həm Azərbaycanın sənaye siyasətinin qlobal çağırışlara uzlaşdırılması, həm də bu sahədə reallaşdırılan qlobal səylərə töhfə verməsi baxımından əhəmiyyətlidir. İqlim konfransında Azərbaycan müxtəlif qlobal təşəbbüslərlə çıxış edir. Bu təşəbbüslərdən biri olan iqlim maliyyəsi, investisiya və ticarət dialoqu üzrə Bakı təşəbbüsü xüsusilə vurğulanmalıdır. Təşəbbüs ticarət və investisiya siyasətlərinin əlaqəli şəkildə həyata keçirilməsi ilə "yaşıl" diversifikasiyaya yönələn səylərin güclənməsinə xidmət edəcək.

TDT ölkələri arasında əməkdaşlıq əlaqələrinin əsas inkişaf istiqamətlərindən biri kimi tədqiqat və inkişaf fəaliyyətlərinin önəmini qeyd etməyin vacibliyini vurğulayan iqtisadiyyat naziri bildirib ki, təşkilat çərçivəsində birgə tədqiqat institutlarının formalaşdırılması, birgə tədqiqat layihələrinin dəstəklənməsi, elmi texnoloji nailiyyətlərin və ən yaxşı təcrübələrin mübadiləsi, texnologiya transferi mərkəzlərinin yaradılması ümumi rifaha müsbət töhfə verə bilər.

M.Cabbarov daha sonra vurğulayıb ki, əməkdaşlıqda digər mühüm istiqamət kiçik və orta biznes strukturlarını (KOB) əhatə edir: "Biz ötən ay qlobal təşəbbüs olaraq "KOB-ların Yaşıl İqlim Keçidi üçün Bakı Koalisiyası"nı elan etdik. Bu təşəbbüs birgə bəyannamə şəklində həyata keçirilir. Bəyannamə həm bütün institusional iştirakçıları, həm də fərdləri KOB-lara iqlim dəyişikliyinin gətirdiyi çətinliklərlə mübarizə aparmağa və onların yaşıl transformasiyasına dəstək verməyə çağırır".

İqtisadiyyat naziri çıxışında ölkələrimiz arasında son illərdə əməli addımlar atıldığını, investisiya fəaliyyətini stimullaşdırmaq, regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək məqsədilə Türk İnvestisiya Fondunun təsis edildiyini, eyni zamanda, Azərbaycanla Özbəkistan, Qırğızıstan və Qazaxıstan arasında yaradılmış investisiya fondlarının ölkələrin iqtisadi inkişafına, rifah səviyyəsinin yaxşılaşdırılmasına müsbət töhfə verəcəyini diqqətə çatdırıb.

# "Qaradağ" GES "yaşıl" gələcəyin qaranquşudur

**Energetika Nazirliyindən XQ-yə bildirilib ki, 2023-cü il oktyabrın 26-da rəsmi açılış mərasimi olan və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa edilən "Qaradağ" Günəş Elektrik Stansiyasında istismara verildiyi vaxtdan bugünədək 458,8 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.**



Stansiya ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etdiyi üçün "yaşıl" enerji mənbəyi hesab olunur. Burada "yaşıl" enerji istehsal edilməklə atmosferə istixana effekti yaradan qazların atılmasının qarşısı alınır.

Qeyd edək ki, Azərbaycanın bərpaolunan enerji potensialına xüsusi maraq göstərən "Masdar" şirkəti 2022-ci il iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində Şuşa şəhərində keçirilən forum zamanı Azərbaycanın Energetika Nazirliyi ilə "yaşıl" enerjiyə dair iki saziş imzalayıb. Həmin sənədlərdə isə 10 giqavat gücündə enerji güclərinin yaradılması nəzərdə tutulub. 2 il sonra, 2024-cü il iyunun 4-də Xəzər neft-qaz sərgisi zamanı həmin sazişlərin reallaşdırılması istiqamətində konkret addımlar atılıb. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 giqavat olan 3 böyük layihənin təməli qoyulub. Biləsuvarda 445 meqavatlıq, Neftçalada, Bankə qəsəbəsində 315 meqavatlıq günəş və Bakı–Şamaxı yolunun üstündə 240 meqavatlıq Abşeron–Qaradağ külək elektrik stansiyaları yaradılır.

"Masdar" şirkəti tərəfindən inşa edilən stansiyanın ümumi gücü isə 230 meqavatdır. Ötən il ölkəmizin bərpaolunan elektrik enerjisi gücü 373,6 meqavat artıb ki, burada da "Qaradağ" GES-in xüsusi payı var.

# Ələt Azad İqtisadi Zonasının "yağış suları" layihəsi

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti İdarə Heyəti sədrinin müavini Cabbar Cabbarlı jurnalistlərə açıqlamasında Ələt Azad İqtisadi Zonasında yağış sularının toplanması üçün xüsusi rezervuarlar hazırlandığını bildirib.**



Onun sözlərinə görə, Bakı şəhərinin Baş Planına uyğun olaraq, hökumətin qarşıya qoyduğu layihələrdən biri də yağış sularının toplanması və təkrar istifadəsi ilə bağlıdır: Bu istiqamətdə Ələt Azad İqtisadi Zonasında dövlət tərəfindən müəyyən işlər aparılır. Prosesin ilkin mərhələsinə artıq başlanılıb. Qalan mərhələlər isə böyük infrastruktur işlərini əhatə edir.

# Ağbənddən Salam Məlikə dəmir yolu çəkiləcək

**"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə açıqlamasında Naxçıvan Muxtar Respublikasının dəmir yolunun yenidən qurulması üçün layihə sənədləri hazırlandığını deyib.**



O qeyd edib ki, artıq Horadiz–Ağbənd istiqamətinə doğru dəmir yolu sürətlə çəkilir. Bir müddət bundan əvvəl gerçəkləşən İran səfərinin isə əsas məqsədi Ağbənd–Salam Məlik istiqamətində çəkiləcək dəmir yolu xətti layihəsinin həyata keçirilməsi ilə bağlı idi. Həmin səfər zamanı qonşu ölkə tərəfdən keçəcək dəmiryol xəttinin marşrutu bir daha müzakirə olunub. Ən uyğun və optimal marşrut, demək olar ki, razılaşdırılıb, körpülərin yerləri və dəmiryol xəttinin keçəcəyi marşrutla bağlı son danışıqlar aparılır.

Xatırladaq ki, İranın ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu və Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəsi təmin edəcək dəmir yolu xəttinə dair konseptual layihə ötən il razılaşdırılıb. 110,4 kilometr uzunluğu olan Horadiz–Ağbənd dəmir yolu xətti üzrə işlərin isə 2025-ci ildə tamamlanması nəzərdə tutulub.

# Xaçmazda "KOB FEST" sərgi-satış yarmarkası

**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən redaksiyamıza daxil olan məlumatda Xaçmaz rayonunda "KOB FEST" sərgi-satış yarmarkası keçirildiyi bildirilib. 3 gün davam edəcək yarmarkanın məqsədi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin tanıdılması, eləcə də satış imkanlarının genişləndirilməsidir.**



Yarmarkada Xaçmaz, eləcə də ətraf şəhər və rayonlardan olan 60-a yaxın KOB subyektinin məhsul və xidmətləri təqdim edilir və satılır. KOB subyektlərinin yarmarkaya çıxartdıqları məhsullar arasında kənd təsərrüfatı və sənaye məhsulları, un məmulatları, tekstil, sərinləşdirici içkilər, suvenirlər, arıçılıq məhsulları, sənətkarların və yaradıcı şəxslərin əl işləri üstünlük təşkil edir.

Yarmarkanın açılış mərasimində çıxış edənlər regionda sahibkarlıq fəaliyyəti üçün imkanlar, biznesin qurulması və inkişaf etdirilməsi üçün dövlət dəstəyi tədbirləri barədə məlumat verib, belə tədbirlərin bölgədə fəaliyyət göstərən sahibkarların məhsullarının satışı və yeni biznes əməkdaşlıqlarının qurulması üçün əhəmiyyətli olduğunu qeyd ediblər.

"KOB FEST" çərçivəsində təşkil edilən sərgi-satış yarmarkası sayca 8-ci tədbirdir. Bundan əvvəl "KOB FEST"lər Bakı, Göygöl, Şəki, Gəncə, Masallı, Naxçıvan və Zaqatalada təşkil olunub. Bu yarmarkalar çərçivəsində, ümumilikdə, 330-a yaxın KOB subyektinin məhsul və xidmətlərinin tanıdılmasına, satışına və yeni biznes əlaqələrinin qurulmasına dəstək göstərilib.

# Təkrar emal "təmiz" gələcəyə xidmət edir

**Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulur. İqtisadiyyat Nazirliyinin bu barədə yaydığı təhlili materialda bildirilir ki, Azərbaycanda qurulmuş təkrar emal prosesi "yaşıl" iqtisadiyyatın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir.**

Müasir iqtisadiyyatda "təkrar emal" anlayışı mühüm yer tutur. İstehlak prosesindən sonra tullantıların bir qismini yenidən istifadəyə yararlı hala gətirmək mümkündür. Təkrar emal yenidən istifadəsi mümkün olan materialların dövri olaraq istehlak prosesinə daxil edilməsidir. Əsas məqsəd təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısını almaq, eləcə də əlavə xammal bazası yaratmaqdır. Təkrar emal ilkin istehsaldan fərqli olaraq, asan və tez başa gəlir ki, bu da enerji qənaətinə imkan verir.

Ölkəmizdə təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədilə dövlət başçısının 2011-ci il 28 dekabr tarixli sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılıb və "Təmiz Şəhər" adıçəkilən parkın idarəedici təşkilatı təyin edilib. Materialda sənaye parkında həyata keçirilən təkrar emal prosesinin mühüm önəm daşıdığı, ilkin mərhələdə 7 hektar ərazini əhatə edən infrastruktura marağın artması nəzərə alınaraq sahəsinin 10,15 hektara çatdırıldığı vurğulanıb.



Balaxanı Sənaye Parkının yaradılması ölkədə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən "yaşıl" iqtisadiyyatın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir. Təkrar emal biznesini qurmaq, innovativ texnologiyaları tətbiq edərək "yaşıl" istehsalla məşğul olmaq istəyənlər üçün bu park əlverişli məkandır. Burada 23 rezident qeydiyyatdan keçib və parkdakı müəssisələrdə tullantılar təkrar emala yönəldilib, "yaşıl" məhsul istehsalının artırılması istiqamətində fəaliyyət genişləndirilib.

Balaxanı Sənaye Parkında rezident kimi fəaliyyət göstərmək sahibkarlara bir sıra üstünlüklər qazandırır. Müasir texnoloji yeniliklər tətbiq edilməklə dayanıqlı inkişaf prinsiplərinə və ətraf mühitin mühafizəsi standartlarına uyğun fəaliyyət göstərən rezidentlər 10 il müddətinə mənfəət, torpaq, əmlak vergisindən azad edilir. Eyni zamanda, istehsal məqsədi ilə idxal edilən texnoloji avadanlıqlar ƏDV-dən və idxal rüsumundan 7 il müddətinə azad olunur. Parkda tullantılardan xammal kimi istifadə edilərək hazırlanan məhsullar bir sıra ölkələrə ixrac olunur.

Tullantıların idarə olunması və ətraf mühitə təsirini azaltmaq sahəsində səmərəli təcrübələrdən biri də onların yandırılaraq zərərsizləşdirilməsi və bu prosesdən enerji əldə olunmasıdır. "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası çərçivəsində yaradılan və 2012-ci ildən fəaliyyətə başlayan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu istehsal gücünə görə Şərqi Avropa və MDB məkanında bu tipli ən iri müəssisə hesab olunur.

Müəssisə dördüncü nəsil (4G) texnologiyaların tətbiqi ilə Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt standartlarına tam uyğun şəkildə qurulub. İllik gücü 500 min ton məişət və 10 min ton tibbi tullantı olan zavodda tullantıların yandırılması nəticəsində 231,5 milyon KVt saat elektrik enerjisi istehsal olunur ki, bu da 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin etməyə imkan yaradır.

Balaxanı Şəhər Tullantılarının Zərərsizləşdirilməsi Poliqonu isə 2009-cu ilin oktyabr ayında "Təmiz Şəhər" ASC-yə təhvil verilib. Burada tətbiq olunan müasir texniki qurğular vasitəsilə zərərsizləşdirilən tullantılardan ayrılan qazlardan elektrik enerjisi əldə olunur. Ayrılan su isə xüsusi filtrasiyadan sonra poliqon ərazisində əkilən ağacların suvarılmasında istifadə edilir.

Tullantıların zərərsizləşdirilməsi sahəsində əhəmiyyətli fəaliyyətlərdən ən vacibi çeşidləmədir. "Təmiz Şəhər" ASC-nin Bərk məişət tullantılarının çeşidlənməsi zavodu 2012-ci ildən bu istiqamətdə uğurla fəaliyyət göstərir. Məişət tullantılarının çeşidlənməsi və ölkədə təkrar istehsal biznesinin inkişaf etdirilməsi məqsədilə illik 200 min ton tullantı qəbul etmək gücünə malik olan bu zavodda çeşidləmənin aparılması nəticəsində ayrılan materiallar tullantıların ümumi həcmini azaldır, Balaxanı Sənaye Parkı üçün isə ucuz xammal bazası formalaşdırır. Bu isə ölkədə təkrar emal prosesinin inkişafına böyük təkan verir. Çeşidləmə zavodunun fəaliyyəti tullantıları düzgün idarə etməklə təbii ehtiyatlara və enerjiyə qənaət olunmasına xidmət edir.

Qeyd edilənlər Azərbaycanda gələcək iqtisadi inkişafın ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində işlərin artırılması ilə sıx bağlı olacağını deməyə əsas verir.

Milli Prioritetlərə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin ediləcək.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




## "Yaşıl dünya" naminə həmrəylik



(əvvəli 1-ci səhifədə)

# COP29 Azərbaycanı beynəlxalq nüfuz zirvəsinə yüksəldir

Beynəlxalq tədbirin davam edəcəyi iki həftə ərzində Azərbaycanın paytaxtı qlobal istiləşmənin yaratdığı aktual problemləri müzakirə etmək üçün dövlət və hökumət başçılarını, müxtəlif beynəlxalq institutların, biznes, vətəndaş cəmiyyəti və media nümayəndələrini bir araya gətirəcək, Paris Sazişinin icrasını sürətləndirmək və uzunmüddətli iqlim məqsəd və strategiyalarını həyata keçirmək üçün zəruri tədbirlər hazırlayacaq nüfuzlu beynəlxalq platforma kimi çıxış edəcək.

Etiraf etmək lazımdır ki, iqlim konfransının Bakıda keçirilməsi təkcə Azərbaycan üçün deyil, bütün Qafqaz regionu üçün əlamətdar hadisədir. Qlobal iqlim siyasətinə həsr olunmuş belə genişmiqyaslı tədbir, ilk növbədə, Azərbaycan üçün həm beynəlxalq aləmdə, həm də ölkə daxilində bir sıra mühüm imkanlar açır. Prezident İlham Əliyev çıxışlarının birində bu konfransın keçirilməsinin ölkə və xalq üçün daha böyük bir uğur olacağını vurğulayır.




Vətən müharibəsinə qədər dünyanın ədalətsizliyi ilə üzləşən Azərbaycan bu gün beynəlxalq aləmdə getdikcə daha çox narahatlıq doğuran qlobal iqlim dəyişikliyi kimi ən kəskin problemlərdən birinin müzakirə platformasına çevrilməklə, sanki dünyaya yeni düzən verməyin vaxtı çatdığına, planetin taleyinin məhz ədalətli yanaşmadan asılı olduğuna işarə edir.

Şübhəsiz ki, iqlim dəyişikliyinin əsas amillərindən biri antropogen və ya insanın iqtisadi fəaliyyətinin təsiridir. Sonuncuya mədən yanacaqlarının yandırılması, meşələrin qırılması, nəticədə havaya kütləvi karbon emissiyasının atılması və heyvandarlığın genişləndirilməsi daxildir. Bütün bunların nəticəsidir ki, atmosferdə istixana qazlarının, ilk növbədə, karbon qazının konsentrasiyası artır ki, bu da istixana effektinin güclənməsinə və temperaturun yüksəlməsinə, müxtəlif kataklizmalara səbəb olur.

BMT-nin məlumatına görə, ötən əsrin 80-ci illərindən bəri hər onillik əvvəlkindən daha isti olub. Nəhayət, 2011-2020-ci illəri əhatə edən onillik tarixdə ən isti dövr kimi tarixə düşüb. Əgər tədbirlər görülməsə qarşıdakı dövrün daha böyük fəlakətlərə səbəb olacağı istisna deyil. Temperaturun yüksəlməsi hava şəraitini dəyişir və təbiətin tarazlığını pozur. Son illərdə dünyanın müxtəlif yerlərində tufan, qasırğa, sel və daşqınlar, sürüşmə, quraqlıq, meşə yanğınları və s. kimi hadisələrin necə tez-tez baş verdiyini müşahidə edirik.

Prezident İlham Əliyev 29-cu Beynəlxalq "Xəzər Neft və Qaz" və 12-ci Xəzər Beynəlxalq "Enerji və Yaşıl Enerji" – Caspian Power sərgisinin açılış mərasimində çıxışında bütün bunları nəzərə alaraq vurğulayıb ki, Azərbaycan iqlim dəyişikliyinin insanların həyatına mənfi təsirini yaxşı bilir: "Xəzər dənizi dayazlaşır, onun səviyyəsi ildən-ilə aşağı düşür. Ona görə də Azərbaycan COP29 iqlim konfransının təşkilatçısı kimi bu vəzifə ilə bağlı bütün vacib məsələlərdən yaxşı xəbərdardır. Bakı bu mühüm vəzifənin faydalarını və çətinliklərini yaxşı bilir".

COP29-un təşkilatçısı olan dövlət başçımızın bu yanaşması problemi bütün ciddiliyi ilə qəbul etdiyini göstərir. Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi və səhraların yaranması təkcə Azərbaycan üçün çətinliklər yaratmır. Bu, bütövlükdə bütün Xəzər regionu üçün ciddi problemdir.

Bir neçə il əvvəl Qessen və Bremen universitetlərinin alman alimləri Utrext Universitetindən olan holland geoloqu Frank Vesselinqlə birlikdə Xəzər dənizinin səviyyəsinin bu əsrin sonuna qədər dəyişməsinin proqnozlaşdırıcı modelini yaratmışlar. Tədqiqatçıların müşahidələrinə görə, 1990-cı illərdən başlayaraq Xəzər dənizində suyun səviyyəsi hər il bir neçə santimetr aşağı düşür. Alman və Hollandiya alimlərinin hesablamalarına görə, 2100-cü ilə qədər Xəzər dənizində suyun səviyyəsi indikindən 9–18 metr aşağı olacaq. Bundan əlavə, Xəzər dənizi hövzəsinin sahəsi 23–34 faiz azalacaq. Bu, regionun ətraf mühitində, iqtisadiyyatında və siyasi sabitliyində bir sıra problemlər yaradacaq.

Aydın məsələdir ki, temperaturun yüksəlməsi insanların sağlamlığı və sosial rifahı üçün də böyük təhlükə yaradır, ətraf mühitə ciddi mənfi təsir göstərir, çoxlu sayda heyvan və bitki növlərini yox olmaq təhlükəsi ilə üz-üzə qoyur.

Azərbaycanda qlobal istiləşmənin mənfi nəticələrinin yaratdığı problemləri daha çox ölkənin kənd təsərrüfatı sektoru hiss edir. İqlim dəyişikliyi səbəbindən ölkədə su ehtiyatları azalır, kənd təsərrüfatı torpaqlarının suvarılması problemi ciddi xarakter alır. Bu da təsadüfi deyil. Dünya Resursları İnstitutunun araşdırmalarına görə, Azərbaycan 2040-cı ildə ciddi quraqlıqla üzləşə biləcək ölkələr arasında 18-ci yerdədir. Bunun özü artıq çox ciddi bir siqnaldır.

Təbii ki, iqlim konfransının Bakıda keçirilməsi regionun bu kimi problemlərinin də ciddi müzakirəsinə və müvafiq qərarların qəbul edilməsinə gətirib çıxaracaq. Amma COP29-un Azərbaycan üçün faydalarını bununla məhdudlaşdırmaq doğru olmazdı.



COP29-un Bakıda təşkili qlobal ekoloji problemlərin həllində fəal iştirak edən ölkə kimi Azərbaycana beynəlxalq imicini möhkəmləndirmək üçün unikal şans verəcək. Bu, Azərbaycana beynəlxalq iqlim məqsədlərinə sadiqliyini nümayiş etdirməyə və özünü dünya miqyasında məsuliyyətli oyunçu kimi göstərməyə yol açacaq. Dövlət başçısı təsadüfən demir ki, dünyada hər kəs bir daha görəcək ki, neft və qaz ölkəsi olan Azərbaycanın gündəmində "yaşıl" enerji var. Yaşıl enerjinin yaradılması və dünya bazarlarına nəqli hazırda enerji siyasətimizin prioritet istiqamətidir.

Digər tərəfdən, iqlim diplomatiyası ilə məşğul olmaq yalnız ölkənin etibarını artırmayacaq, həm də ona böyük iqtisadiyyatlar, inkişaf etmiş ölkələrlə və beynəlxalq təşkilatlarla əlaqələri gücləndirməyə imkan verəcək. Bundan əlavə, Azərbaycan beynəlxalq şirkətlər və investorlarla yeni əlaqələr qurmaq fürsəti qazanacaq, bu da ölkənin iqtisadi tərəqqisinə töhfə verə və ekoloji təmiz layihələrə investisiya cəlb edilməsinə yol açar.

Beynəlxalq tədbirin iqtisadi faydalarına gəldikdə isə, onu xüsusi qeyd edək ki, COP29 Azərbaycanda "yaşıl" iqtisadiyyatın inkişafı üçün katalizator ola bilər. Konfransda müzakirə olunan məsələlərin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan bu tədbirdən yararlanaraq bərpaolunan enerji, təmiz texnologiyalar və sənayenin modernləşdirilməsi ilə bağlı layihələrə investisiya yatırmaq imkanı qazanar.

Bütün bunlarla yanaşı, Bakı konfrans günlərində turist axınından, eləcə də mehmanxana, restoran və nəqliyyat sektorlarına artan tələbatdan iqtisadi cəhətdən faydalana biləcək. Belə beynəlxalq tədbirlər işgüzar dairələrin diqqətini tez-tez cəlb edir və bu da uzunmüddətli investisiyalar üçün əlavə imkanlar yaradır.

COP20 ölkənin iqlim siyasəti və ekoloji təşəbbüslərinin irəli sürülməsində də əhəmiyyətli rol oynayacaq. Azərbaycan artıq karbon emissiyalarının azaldılması və bərpaolunan enerji mənbələrinə keçid istiqamətində ciddi addımlar atır. COP29-a evsahibliyi etmək ölkəyə ekologiya və iqlim sahəsində öhdəliklərini gücləndirməyə, həmçinin bu layihələrin həyata keçirilməsi üçün beynəlxalq dəstək almağa imkan verəcək.

Qlobal iqlim gündəmi kontekstində Azərbaycan inkişaf etməkdə olan iqtisadiyyata malik bir dövlətin iqlim dəyişikliyinin təsirlərinin azaldılması üzrə qlobal səylərə necə töhfə verə biləcəyini göstərməklə regionun digər ölkələri üçün nümunə olacaq. COP29-un Azərbaycanı günəş və külək enerjisi potensialından, xüsusilə enerjinin şaxələndirilməsi kontekstində daha fəal istifadə etməyə sövq edəcəyi də istisna deyil.

COP29 müddətində iqlim və ekologiya sahəsində regional əməkdaşlıq üçün mühüm platformaya çevriləcək Azərbaycan, sonrakı mərhələdə Qafqaz və Mərkəzi Asiya ölkələrinin vahid iqlim strategiyasının hazırlanması üzrə səylərinin əlaqələndirilməsində əsas rol oynayacaq və bu, regional lider kimi ölkənin geosiyasi mövqelərini gücləndirəcək. Bundan əlavə, region ölkələrinin Azərbaycanın təklif etdiyi müzakirələrdə və təşəbbüslərdə iştirakı ekosistemin qorunması, su idarəçiliyi və təbii ehtiyatlardan davamlı istifadə kimi sahələrdə fəaliyyətlərin əlaqələndirilməsinə kömək edəcək.

Hazırda iqlim dəyişikliyi sahəsində qarşıya qoyulmuş vəzifələrin həllində heç şübhəsiz, innovasiya və texnologiya əsas diqqət mərkəzindədir. Bu baxımdan COP29 həm də iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş innovativ texnologiyaların və yanaşmaların təqdimatı üçün platforma olacaq. Azərbaycan fürsətdən yararlanıb beynəlxalq texnologiya şirkətlərinin və tədqiqat mərkəzlərinin diqqətini sənaye və şəhər infrastrukturuna müasir ekoloji texnologiyaların tətbiqi üzrə layihələrə cəlb edə bilər.

BMT-nin ən böyük humanitar tədbirinin – COP29-un Bakıda gerçəkləşməsi Azərbaycana enerjiyə qənaət, havanın təmizlənməsi, tullantıların və suların idarə edilməsi sahəsində bilik və qabaqcıl həllərdən faydalanmağa da imkan verəcək ki, bu da ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılmasına yardım edəcək.

*Məhərrəm SƏFƏRLİ,*
*"Həsən bəy Zərdabi" mükafatı laureatı*

# Naxçıvanda "GreenFest" keçirilib



**Naxçıvan şəhərindəki "Saat meydanı" İstirahət Mərkəzində "GreenFest"in açılışı olub. Mərasimdə çıxış edən muxtar respublikada Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qədim diyarda "GreenFest"in COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirildiyini qeyd edib.**

COP29-un Azərbaycan üçün həm siyasi, həm də iqtisadi baxımdan əhəmiyyətinə toxunan S. Seyidəhmədli bildirib ki, bu tədbir respublikamızın iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə verdiyi dəstəyi bir daha göstərir və ölkəmizin ekoloji problemlərin həllinə sadiqliyini nümayiş etdirir: "Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin və Naxçıvan Muxtar Respublikasının "yaşıl" enerji zonası elan olunması ölkəmizdə, bütövlükdə, iqlim dəyişikliyi sahəsində həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi kimi yüksək dəyərləndirilməlidir".

"GreenFest"in də vacib dövrdə keçirildiyini və mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan S.Seyidəhmədli əminliklə ifadə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29 ölkəmizdə uğurla keçiriləcək, Azərbaycan bir daha dünyanı narahat edən məsələlərə münasibətdə öz sözünü deyəcək və ədalətli mövqeyini ortaya qoyacaq.

Muxtar respublikada COP29 və "Yaşıl dünya naminə həmrəylik ilinə hazırlıq"la bağlı yaradılmış İşçi qrupunun rəhbəri, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov qədim diyarda bu istiqamətdə görülən tədbirləri diqqətə çatdırıb. Qeyd edib ki, 2024-cü il fevralın 23-də Naxçıvanda bununla bağlı müşavirə keçirilib, işçi qrupu yaradılıb və bu istiqamətdə muxtar respublikada görüləcək tədbirlər müəyyənləşdirilib. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Tədbirlər Planı"nda da ətraf mühitin mühafizəsinin gücləndirilməsi əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirilib.

"GreenFest" çərçivəsində keçirilən ekoloji startap layihələrinin qalibləri mükafatlandırılıb, sərgi ilə tanışlıq olub.

*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan**

# "Yaşıl" biznes standartı

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına görə, bu qurumun təşəbbüsü və dəstəyi ilə hazırlanan "yaşıl" biznesin idarəedilməsi sistemləri" dövlət standartı bu modelə keçmək istəyən sahibkarlar üçün faydalı sənəddir.**




Məlumatda qeyd edilir ki, iqlim dəyişiklikləri ilə mübarizə, ətraf mühitin qorunması, resurslardan səmərəli istifadə fonunda "yaşıl" bizneslərin önəmi artmaqdadır. "Yaşıl" biznes dedikdə ekoloji və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ətraf mühitə və cəmiyyətə müsbət təsir göstərən iş modeli nəzərdə tutulur. Fəaliyyətində "yaşıl" prinsipləri əsas götürən bizneslər ətraf mühitə, necə deyərlər, dost olur, resurslardan daha səmərəli istifadə edir, az tullantı yaradır, ekoloji təmiz məhsul və xidmətlər istehsalını gerçəkləşdirir. Bir sözlə, "yaşıl" biznes yalnız gəlir əldə etməyi deyil, həm də ətraf mühitin və cəmiyyətin rifahını ön planda tutmağı hədəfləyir.

Ətraf mühitə münasibətdə məsuliyyətli davranış istehsal zamanı birbaşa təsirlərin aradan qaldırılması ilə məhdudlaşmır, ümumilikdə, "yaşıl" davranışların təşkilatın bütün biznes proseslərinə və idarəetmə sisteminə inteqrasiyasını zəruri edir. Bu baxımdan, "yaşıl" planlama, "yaşıl" idarəetmə üzrə strategiya və siyasətlərin hazırlanması və tətbiq olunması əhəmiyyətlidir.

Ekoloji təmiz xammal və materialların seçilməsi, su, enerji və torpaq ehtiyatlarından səmərəli istifadə, tullantıların düzgün idarəedilməsi, "yaşıl" maliyyələşmə kimi amillər "yaşıl" fəaliyyətin təşkili üçün zəruridir. Yaşıl biznes idarəetmə sisteminin tətbiqi ilə yanaşı, onun mütəmadi olaraq monitorinqinin aparılmasına, qiymətləndirilməsinə və təkmilləşdirilməsinə də diqqət yetirilməlidir.

Bu yaxınlarda qəbul edilmiş AZS 962:2024 "Yaşıl biznesin idarəedilməsi sistemləri" dövlət standartı bizneslərin hansı istiqamətdə hansı "yaşıl" prinsipləri tətbiq edə biləcəyini göstərməklə, həm də faydalı təlimat rolunu oynayır. Yeni standartın tətbiqi bizneslərin, o cümlədən kiçik və orta biznes (KOB) subyektlərinin "yaşıl" biznes modelinə keçidini asanlaşdırmaqla qlobal bazarda daha rəqabətqabiliyyətli olmasına imkan verəcək. KOB-ların ətraf mühitə təsirinin minimuma endirilməsini, resurslardan səmərəli istifadəni və ekoloji məsuliyyəti artırmağı nəzərdə tutan yeni standart, həmçinin ekoloji innovasiyaların stimullaşdırılmasına xidmət edəcək.

Qeyd olunub ki, AZS 962:2024 "Yaşıl biznesin idarəedilməsi sistemləri" dövlət standartı "ESD-Goals" MMC tərəfindən təqdim edilən standart layihəsi çərçivəsində "Uyğunluğun qiymətləndirilməsi" (AZSTAND/TK 08) və "Ekologiya" standartlaşdırma üzrə Texniki Komitələrdə (AZSTAND/TK 09) müzakirə edilib, ümumi razılıq əsasında qərar qəbul edilərək təsdiq edilməsi üçün İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində Azərbaycan Standartlaşdırma İnstitutuna təqdim edilərək qəbul olunub.

Xatırladaq ki, dövlət–özəl sektor əməkdaşlığı çərçivəsində KOBİA-nın təşəbbüsü və dəstəyi ilə hazırlanmış yeni standart beynəlxalq müstəvidə ilk belə təcrübələrdəndir.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*

# Azərbaycanda Beynəlxalq Yaşıl STEAM Festivalı

**Bakı Ekspo Mərkəzində Elm və Təhsil Nazirliyinin və COP29 sədrliyinin dəstəyi, “STEAM Azərbaycan” layihəsinin təşkilatçılığı ilə Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalı keçirilib.**



Açılış mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev festivalın təhsil sahəsində nüfuzlu və əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırdı: “Son illər Azərbaycan STEAM təhsili mərhələli şəkildə həm ümumi orta, həm də ali təhsilin bir hissəsinə çevrilməkdədir. 250 min şagird müxtəlif səviyyələrdə STEAM siniflərinə cəlb olunub. Festival isə şagirdlərdə ətraf mühitin sağlamlaşdırılması ilə bağlı fikirlər formalaşdıracaq. İlk dəfə burada ənənəvi kateqoriyalarla yanaşı, şagirdlər iqlim dəyişikliyi ilə bağlı dayanıqlı həll yollarının tapılması, planetimizin qorunması kimi mövzularda bilik və bacarıqlarını nümayiş etdirəcəklər”.



BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu, deputat Nigar Arpadarai bildirdi ki, COP29 ərəfəsində keçirilən bu festival çərçivəsində əsas diqqətin yaşıl texnologiyalara yönəldilməsi mühüm əhəmiyyət daşıyır: “COP29 sədrliyi olaraq 14 təşəbbüs irəli sürmüşük. Bu sırada təhsillə bağlı “İqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı təşəbbüsü” xüsusi yer tutur”.

“STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərov tədbir iştirakçılarına məlumat verdi ki, builki festivalın final mərhələsinə, ümumilikdə, 244 komanda üzrə 900-dən çox iştirakçı qatılıb və onlardan 146-sı Böyük Britaniya, Türkiyə, Pakistan, Türkmənistan, Qazaxıstan, Çexiya, Slovakiya və ABŞ da daxil olmaqla 15 ölkəni təmsil edir. Festival çərçivəsində 9 kateqoriya üzrə sərgi və yarışlar təşkil olunacaq. Bunlar “Yaşıl təşəbbüslər”, “Yaşıl kodlaşdırma” “Hidrogen maşınların yarışı”, “Dron texnologiyaları”, “Bizim peykimiz”, “Robotların mübarizəsi”, “Gələcəyin mühəndisləri” və s. kimi mövzuları əhatə edəcək.

Çıxışlardan sonra festival iştirakçılarının hazırlıq mərhələsini əks etdirən video təqdim edildi, iştirakçı komandaların təqdimatı oldu. Açılış mərasimi bədii hissə ilə yekunlaşdı.

Xatırladaq ki, 4 il əvvəlki festivalda yalnız öz ölkəmizdən şagird və tələbələr iştirak edirdisə, artıq çoxsaylı ölkənin şagirdləri bu bayrama qatılıb. Müxtəlif ölkələrin təcrübələri öyrənilir və onlar milli kurikuluma adaptasiya olunaraq, məktəblərdə dərsdənkənar fəaliyyət kimi tədris olunur. Bununla yanaşı, Azərbaycan bir sıra ölkələrdə STEAM tədrisinin qurulmasına da dəstək göstərir.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Dünya səyyahları Şuşada və Ağdamda



**Belçika vətəndaşı Yves Bouvienin başçılıq etdiyi Böyük Britaniyanın “Piki Reels” klubunun 33 nəfərlik səyyah qrupu Füzulidən sonra Şuşaya səfər edib.**

Şuşa şəhər mərkəzi meydanına gələn səyyahlar Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar. Qonaqlara Şuşa şəhəri, onun işğal dövründəki vəziyyəti barədə məlumat verilib.

Səyahətçilər Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə də tanış olublar. Həmçinin səyyahlar Şuşa həbsxanasına baş çəkiblər. Cıdır düzünə gələn səyyahlar buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Qeyd edək ki, dünyanın əsas beynəlxalq səyahətçilər klublarının 2020–2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzura 11 səfəri təşkil olunub. Bu səfərlərdə, 50-dən artıq ölkədən 400 nəfərdən çox məşhur beynəlxalq səyahətçi iştirak edib. Böyük Britaniyanın “Piki Reels” klubunun bu səfəri isə sayca 12-cidir.

*

Səyyah qrupu Şuşadan sonra Ağdamı da ziyarət edib. Şəhərdəki Şəhidlər xiyabanına gələn səyyahlara burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladlarının, o cümlədən Xocalı soyqırımında qətlə yetirilən dinc sakinlərin bir hissəsinin dəfn edildiyi bildirilib.

Xarici səyyahlar sonra Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə-yeksan etdikləri binaların qalıqlarına baxıblar. Məlumat verilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən olub.

*XQ*



**Əhsən Dadaşov – 100**

# Biri sənsən, biri biz...

**Milli musiqi irsimiz zəngin Azərbaycan mədəniyyətində özünəməxsusluğu və orijinallığı ilə önəmli yer tutur. Bu möhtəşəm mənəvi mirasın yaşadılmasında, təbliğində və gələcək nəsillərə çatdırılmasında xidmətləri olan yaradıcı şəxsiyyətlərdən biri də ustad tarzən, ansambl rəhbəri, unudulmaz bəstələrin müəllifi və müşayiətçisi, Əməkdar artist Əhsən Dadaşovdur. Azərbaycan tar ifaçılığı sənətində özünəxas yaradıcı “mizrabı” ilə tanınan tarzən özündən sonrakı nəsillərə böyük mədəni irs bəxş edib.**

Əhsən Dadaşovun tərcümeyi-halı ilə tanış olanda, o, güclü ruha malik, taleyin sərt zərbələrinə baxmayaraq yoluna əzmlə davam etməyə qadir bir şəxsiyyət kimi qarşımıza çıxır. Stalin repressiyası onun da ailəsindən yan keçməyib. “Qırmızı terror”un günahsız qurbanlarından biri də atası Əliabbas kişi olub. O vaxt Əhsənin 13 yaşı var idi. Amansız dönəmin çətinliklərinin üst-üstə gəldiyi bir vaxtda ruhdan düşməməyə çalışan, totalitar rejimin hətta, tanınmış qələm sahiblərini belə “Oxuma tar, oxuma tar…” yazmağa məcbur etdiyi illərdə musiqi sənətinə – tar ifaçılığına qarşısıalınmaz meyli ilə diqqət çəkən Əhsən Dadaşov ruhundakı pozitivliyi və ümidi qoruyaraq uzun və çətin yola çıxıb. Bu, ecazkar Azərbaycan musiqisini öz ruhundan keçirib bütün qəlbi ilə yaşamaq və yaşatmaq yolu idi. Əhsən Dadaşov tara sarılıb unudulmaz “Şur”unu ifa edərkən yolu üzərində indi dillər əzbəri olan məşhur kəlmə ilə – “Əhsən sənə, Əhsən!”lə onu alqışlayan dahi Üzeyir Hacıbəyov, “müəlliminə bənzəmə, özün ol” söyləyən Ənvər Mənsurov, “Əhsən hələ vətəndaşlıq pasportu almayıb, amma tarzən pasportunu çoxdan alıb” deyən Səid Rüstəmov kimi ustadlar dayanmışdılar...



Valideynləri onu həkim görmək arzusunda idilər, o isə qəlbinin səsi ilə musiqiyə sarı gedib. Şübhəsiz ki, Əhsən Dadaşov hansı sahəyə üz tutsaydı, öz fitri istedadı ilə öndə gedə bilərdi, amma o zaman Azərbaycanın musiqi tarixi bir Əhsəndən məhrum olardı. Məhz bu fitri istedadına görə yaşının azlığına baxmayaraq – hələ 16 yaşında ikən o, Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrində işə qəbul olunub.

Əhsən Dadaşovun güclü ruhu haqqında danışanda onun həyatda aldığı zərbələr qarşısında mətin duruşundan söz açdıq. Vücudu qara qəpiyə dəyməyən şəxslərin yeniyetmə Əhsənin atasını Sibirə – gedər-gəlməzə göndərmələri az imiş kimi, yetkinlik dövründə də azyaşlı oğlunu itirmək dərdi böyük sənətkarın ruhən sarsılmasına səbəb olub. Bəlkə də bütün bu ağrıları, dərdləri üzündə təbəssüm olsa da, daxilində ağır yük kimi daşıdığına görə həyatının və yaradıcılığının ən məhsuldar çağında – 52 yaşında əcəl amansız xəstəlik cildində onu yaxalaya bilib. Təsəlli isə budur ki, cismən bu dünyadan ayrılsa da, gələcək nəsillərə zəngin orijinal musiqi irsi və melodik bir “Xatirə”si qalıb…

## Əhsəndən “Xatirə”

Əhsən Dadaşovun milli musiqi tariximizdəki əvəzsiz xidmətlərindən biri də 1960-cı illərdə “Xatirə” xalq çalğı alətləri ansamblını yaradaraq onu öz orijinal üslubu ilə inkişaf etdirməsidir. Azərbaycan Milli Konservatoriyasının dosenti, tarzən-pedaqoq Mahmud Əliyev “Konservatoriya” elmi jurnalında dərc olunan “Azərbaycan xalq çalğı alətləri ansamblının inkişafında Əhməd Bakıxanov və Əhsən Dadaşovun rolu” sərlövhəli məqaləsində yazır: “Əhsən Dadaşov özündən əvvəlki və müasiri olan ustad sənətkarların üslubuna, ənənəsinə hörmətlə yanaşan, bununla belə öz yolunu, dəst-xəttini yaradan musiqiçi idi. Özünəməxsus fərdi ifaçılıq xüsusiyyətlərinə malik sənətkarın orijinal üslubu ansambla da yansımışdı. Onun müraciət etdiyi istənilən musiqidə bütövlük, tamlıq, möhtəşəmlik, ifaçılıq nizamı hakim olurdu. Əhsən Dadaşovun musiqisi bütün gözəlliyi, dərinliyi, füsunkarlığı, ehtişam və əzəməti ilə Azərbaycan xalqına məxsus idi. Ansambl da məhz bu cəhətləri özündə cəmləşdirmişdi.

Onun bədii rəhbər, konsertmeyster kimi böyük xidmətlərindən biri də Azərbaycan xalq çalğı alətlərinin hər birinin özünə xas olan keyfiyyətlərini, imkanlarını yeni baxış bucağında müəyyənləşdirməsində idi. O, ansambla orijinallıq, yeni vüsət gətirmək, onun repertuarını mütəmadi təzələmək, klassik irsə sadiq qalmaq, qədim ifaçılıq ənənələrinin ən yaxşı cəhətlərini qoruyub saxlamaq, onları yeni tərzdə, yeni biçimdə dinləyicilərə çatdırmaq üçün daim axtarışlar aparmış və buna nail olmuşdur. Əhsən Dadaşovun rəhbərlik etdiyi ansamblın tərkibi də əsasən, milli xalq çalğı alətləri ilə komplektləşdirilmişdi. Tar, kamança, ud, saz, nağara ilə yanaşı, Orta Asiya musiqi alətlərindən bas dütar, Avropa musiqi alətlərindən fortepiano və qaboyu əlavə etməklə ahəngdarlıq, intonasiya və tembr, ritm zənginliyi yaratmışdı”.

Milli musiqimizin tarixinə və nəzəriyyəsinə yaxşı bələd olan mütəxəssisdən gətirdiyimiz bu iqtibas, zənnimizcə, görkəmli tarzənin ansambl rəhbəri kimi xidmətlərini ümumiləşdirən ən dəyərli fikirlərdəndir.

Əhsən Dadaşov ansamblında bəstəkar mahnılarına geniş yer verirdi. Azərbaycan milli ifaçılıq sənətinin Seyid Şuşinski, Xan Şuşinski, Şövkət Ələkbərova, İslam Rzayev, Sara Qədimova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Qədir Rüstəmov və daha neçə-neçə korifeyi Əhsən Dadaşovun peşəkar ansamblının müşayiəti ilə ilhamlanaraq özlərinin ən gözəl, unudulmaz nəğmələrini ifa ediblər. Bununla da, Əhsən Dadaşov bir çox mahir ifaçı və xanəndənin sənət taleyinə unudulmaz mizrabı ilə, necə deyərlər, öz imzasını atmış, onların şöhrət zirvəsini fəth etməsində müşayiətçi olmuşdu.

Onun böyük sevgi və zəhmətlə yaradıb ərsəyə gətirdiyi “Xatirə” ansamblı adları sadalanan sənətkarların irsi kimi özündən sonra Azərbaycan xalqına bəxş etdiyi əziz xatirə olmaqla yanaşı, həm də dəyərini onillərlə itirməyən mənəvi xəzinədir.

## Yenilikçi tarzən

Uzun illərin gərgin zəhməti ilə istedadın birgə vəhdəti sayəsində Əhsən Dadaşovun timsalında Azərbaycan musiqi tarixi ustad tarzən, peşəkar müşayiətçi, mahir orkestr ifaçısı, tələbkar, eyni zamanda, qayğıkeş ansambl rəhbəri, poetik ruhlu bir bəstəkar və tələbələrinə şəfqətlə yanaşan bir müəllim qazanır. Əhsən Dadaşovun rəhbərlik etdiyi “Xatirə” xalq çalğı alətləri ansamblının müşayiət etdiyi “Şur”, “Rast”, “Zabul-Segah”, “Çahargah”, “Bayatı-Şiraz”, “Hümayun”, “Vilayəti-Dilkəş” kimi muğam dəstgahları bu gün də Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin “qızıl fond”unda qorunmaqdadır. Bütün bu ifalarda Əhsən Dadaşov həmişə özünü təkrarolunmaz improvizator kimi göstərib. Müasirlərinin də bildirdikləri kimi, o, ifalara könlündən, ruhundan qopub gələn yeni nüansları, xalları, rəngləri, çalarları da qatardı. Təsadüfi deyil ki, müasirləri olan peşəkar musiqişünaslar da məqalələrində onu “poetik ilhamlı tarzən” kimi xarakterizə edirlər. Çünki Əhsən Dadaşov qəliblərə sığa bilən, şablonlar çərçivəsində hərəkət edən sənətkar deyildi. Onun ilhamının da, vəcdinin də, istedadının da, musiqiyə olan məhəbbətinin də sərhədləri sonsuz idi…

## “Bir pərdənin iki səsi”

Yaradıcılığı haqqında söz düşəndə ilk olaraq ustad tarzən və ansambl rəhbəri kimi xatırlanan Əhsən Dadaşov həm də unudulmaz bəstələrin müəllifidir. Bu bəstələrin bəziləri o qədər məşhurdur ki, indi də dillərdə dolaşır, ancaq dinləyənlər bu mahnıların bəstəkarının kim olduğundan xəbərdar deyillər. Bunun bir səbəbi də Əhsən Dadaşovun öz təbiəti etibarilə təvazökar və sadə insan olmasında idi.

Sənətşünaslıq elmləri doktoru, Azərbaycan Milli Konservatoriyasının professoru Abbasqulu Nəcəfzadənin yazdığına görə, Əhsən Dadaşov gözəl avazlı, ürəyəyatımlı səsə malik imiş: “Teleradionun səsyazma studiyasında Əhsən Dadaşov “Gəl barışalım” mahnısını royalda ifa edib və ansamblın müşayiəti ilə oxuyarkən səs rejissoru, bəstəkar Adil Bəbirov heç kəsin xəbəri olmadan lentə almışdı. Həmin ifa indi də fonotekada qorunur”.

Əhsənsevərlər onun bəstəkarlıq yaradıcılığına yaxşı bələddirlər. Şəxsən mən Əhsən Dadaşovun müəllifi olduğu “Hümayun” rənginə, Xalq şairi Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi məşhur “Biri sənsən, biri mən” və Bəhram Nəsibovun mətni əsasında bəstələdiyi “Peyman etdik” mahnılarına vurğunam. Təbii ki, Əhsən Dadaşovun bəstəkarlıq fəaliyyəti bu məhdud subyektiv seçimlərlə kifayətlənmir. O, onlarca belə mahnı, rəng və melodiyanın bəstə müəllifidir. Lakin adını çəkdiyim və İslam Rzayevin bənzərsiz ifasında sevə-sevə dinlədiyim bu mahnılar lirik tərzinə, ifaçılıq üslubuna görə, insan ruhuna toxunmaq baxımından ən sevdiyim mahnılar siyahısına daxildir. Əhsən Dadaşovun bəstələri haqqında araşdırma apararkən “Biri sənsən, biri mən” nəğməsinin şəhid generalımız Polad Həşimovun ən sevdiyi mahnı olduğunu öyrəndim. Bu məlumat məni həqiqi sənətin gücü ilə gerçək qəhrəmanlığın birləşdiyi o ali nöqtədə riqqətə gətirərək çox kövrəltdi…

**Qoşa simin titrəməsi,**
**Biri sənsən, biri mən.**
**Bir pərdənin iki səsi,**
**Biri sənsən, biri mən…**

Bu məlumat həm də Azərbaycan və azərbaycanlı olmağın iki fərqli qütbünü göstərən, hər ikisinin öz sahəsinin unudulmaz generalı olduğu həqiqəti kimi simvolik bir xatırlatma olaraq sanki qarşıma çıxmışdı…

Cəmi 52 il ömür sürüb bu dünyadan silinməz izlərlə keçib gedən Əhsən Dadaşovun bu il 100 illiyi tamam olur. Xalqımızın dua boxçasında “Yüz yaşayasan!” alqışı var. Fiziki ömründən daha artıq mənəvi olaraq xalqının yaddaşında sevgiylə “yüz yaşamaq” da ancaq millətinin mədəniyyətinə xidmət göstərən yaradıcı şəxsiyyətlərə nəsib olan səadətdir. Əminik ki, musiqi zövqümüzü cilalayaraq gözəlləşdirən, xəlqiliyə söykənərək mədəniyyət tariximizdə özünəməxsus iz salan Əhsən Dadaşovun sevdiyim “Peyman etdik” mahnısında deyildiyi kimi, qədirbilən xalqımız bundan sonra da “vəfa-etibar” deyərək, onu yaddaşında zaman-zaman yaşatmaqda və sevməkdə davam edəcək…

*Səxavət HƏMİD*
*XQ*

**Azərbaycan Mətbuat Şurasının, “ƏHSƏN” Yaradıcılıq Təşəbbüsləri Mərkəzinin və Xəzər Media Mərkəzinin Əməkdar artist Əhsən Dadaşovun yaradıcılığı ilə bağlı birgə yazı müsabiqəsinə təqdim olunur.**

Sumqayıt – 75

# Sahil şəhərinin ədəbi dalğaları



**Sumqayıt Azərbaycan coğrafiyasının gözəl, boy-buxunlu "övladı", Cənubi Qafqazın 2-ci böyük sənaye şəhəridir. Geniş, işıqlı küçə və prospektləri, üzə gülən park və xiyabanları, "göydələn" binaları, abidələri ilə sahilində qərar tutduğu qocaman Xəzərin aynasında güzgülənir.**

Bir vaxtlar arzu qanadlarında gəlib buranı yurd-yuva seçənlərin, qoynunda doğulub boya-başa çatanların taleh şəhəridir Sumqayıt. İlk quruculuq illərində fəhlə şəhəri kimi tanınırdı. İndi isə böyük ziyalı ordusu, mədəniyyət və incəsənət adamları ilə də öyünür. Sumqayıtın öz universiteti, dövlət teatrı, "Poeziya evi" də var.

Şəhərin 75 illiyi ərəfəsində növbəti yazıma mənim üçün də doğma ünvan olan "Poeziya evi"ndən başlamaq istədim. Heydər Əliyev Parkında gözəl bir binadır. Əvvəl başqa məqsədlə tikilmişdi, amma icra hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərə rəhbər təyin olunandan az sonra buranı söz-sənət adamlarının ixtiyarına vermək təşəbbüsündə bulunub. Ona qədər Poeziya klubu kimi şəraitsiz yerlərdə fəaliyyət göstərirdi. Bildiyim qədərincə, Qazaxın Yuxarı Salahlı kəndindən və Şabran şəhərindən sonra Sumqayıt özünün ayrıca "Poeziya evi" olan 3-cü ünvandır. Buranı həm də ona görə seçdim ki, yubilyar şəhərlə bağlı duyğu və düşüncələrini kimsənin söz adamlarından daha yaxşı, daha obrazlı ifadə edə biləcəyinə inanmadım. Axı hər zaman məhz onlar əziz şəhərin yüksəlişini ürəkdən vəsf ediblər, bədii salnaməsini yaradıblar.

Əvvəlcə eyni binada yaşadığım, tanınmış qələm adamı, Prezidentin fərdi təqaüdçüsü Əşrəf Veysəlli ilə görüşərək, mənimlə birlikdə yazarların "qərargah"ına getməsini xahiş etdim. Məmnuniyyətlə razı oldu. Yolboyu xatirələrini danışdı, 86 illik ömrünün üçdə-ikisini yaşadığı şəhərə qəlbən necə bağlılığını şairanə tərzdə əsaslandırdı, buranın ədəbi mühitinin ilk dövrlərini yada saldı.

"Poeziya evi"ndə bizi oranın direktoru, AYB-nin poeziya bölməsinin rəhbəri şair İbrahim İlyaslı qarşıladı. Əşrəf müəllim məhz onun səyləri ilə estetik görünüş qazanan, klassiklərin portretləri ilə bəzədilən saraya göz gəzdirib sözünə davam elədi:

– Sumqayıtın dünəni də, bugünü də mənim üçün əzizdir. Birində gəncliyimin şaqraq illəri, o birində isə qocalığımın xoş bəhrəli çağları... Sumqayıtda həmişə diqqət çəkən, qaynar bir ədəbi mühit olub. Əli Kərimi, Vaqif İbrahimi, Feyzi Mustafayevi, Ağəddin Mansurzadəni, Xasay Cahangirovu və digərlərini heç cür unuda bilmirəm. Qulam Feyzullayevin, Söhrab Abdullayevin də burada ədəbi mühitin formalaşmasında böyük əməkləri olub. O zamanlar mən "Sumqayıt" qəzeti nəzdində bədii şuranın sədri və poeziya klubunun direktoru idim. Mədəniyyət evlərində ədəbi birliklər, dərnəklər vardı. İndi isə, maşallah, belə gözəl, möhtəşəm "Poeziya evi", AYB-nin şəhər bölməsi var və estafet uğurla davam edir. Sumqayıt ədəbi mühiti şəhər rəhbərliyinin diqqətindən kənarda deyil. Sözə, nəğməyə, bayatıya, nağıla bükük əzizlədiyimiz Sumqayıta həsr etdiyim şeirdən bir bənd deyim:

*Yaranışdan o mənim*
*könlümə ilham verib,*
*Qoynu coşub daşmalı,*
*çağlamalı şəhərdir.*
*Otuna sığal çəkib,*
*gülünə salam verib,*
*Hər gün halını sorub,*
*yoxlamalı şəhərdir.*

Sumqayıt ədəbi cameəsində güvəndiyim və bəyəndiyim imzalar çoxdur. Rafiq Yusifoğlu, Ofelya Babayeva, Əvəz Mahmud Lələdağ, Məmməd İlqar, Zirəddin Qafarlı, Varis, Eyruz Məmmədov, İbrahim İlyaslı, Gülnarə Cəmaləddin, Hümbət Həsənoğlu, Nadir Azayoğlu, Xatirə Fərəcli, Rafiq Oday, Nazilə Gültac, Əyyub Qiyas, Ehtiram İlham, Lilpar Cəmşidqızı və başqalarının adlarını çəkə bilərəm. İnanıram ki, onlar doğma şəhərin 75 illiyinə də əliboş gəlmirlər.




Vaxtilə Nəbi Xəzri, Əhməd Cəmil, Zeynal Cabbarzadə, Hafiz Baxış, Vaqif İbrahim Sumqayıtın şəninə gözəl poetik nümunələr yaradıblar. Əvvəlcə gənclik şəhərində romantik peşə sayılan tramvay sürücüsü olmuş, sonra tanınmış istedadlı şair-jurnalist Tofiq Məmməd yazıb:

*Məndən hünər istə, məndən iş istə,*
*Gör nələr, gör nələr yaratmışam mən.*
*Sumqayıt böyüyüb əllərim üstə,*
*Onunla birlikdə boy atmışam mən.*

Fərəhlidir ki, Sumqayıtın yubileyləri ərəfəsində həmişə "Ən yaxşı şeir və hekayə" müsabiqələri də keçirilib və doğma şəhəri daha sanballı tərənnüm edənlər mükafatlandırılıblar. Onlardan biri də İbrahim İlyaslı olub. Şairin şeirindən bir bəndi yada salaq:

*Həyatın özünə verdik imtahan,*
*Adınla gecəni gündüzə qatdıq.*
*Alın tərimizlə yoğruldu mayan,*
*Səni qarış-qarış qurub yaratdıq.*

"Sumqayıtdan gələn səslər", "Dünya Sumqayıtdan keçir" (tərcümələr), "Sahilsiz dəniz", "Həzin nəğmələrdə yaşayan şəhər" kimi poeziya almanaxları buraxılıb. Yenisini gözləyirik.

Bu yaxınlarda müsahibə aldığım Ofelya Babayeva Sumqayıtın ilk xanım şairidir. Bu gün o, Əməkdar müəllim, "Şöhrət" ordenli Sumqayıt veteranı, Prezidentin fərdi təqaüdçüsüdür. Söhbət zamanı dedi ki, Prezident İlham Əliyevin Xalq şairi, görkəmli ictimai xadim Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı sərəncamı sumqayıtlıların da sevincinə səbəb olub. Çünki Nəbi Xəzri Sumqayıtın fəxri vətəndaşıdır. Bu şəhər haqqında ilk monumental əsər olan "Sumqayıt səhifələri" poeması isə Azərbaycan ədəbiyyatına layiqli töhfədir:

*Sumqayıt, əzizim, gözlərin aydın,*
*Sənin hər addımın böyük hünərdir.*
*Deyirəm, bəlkə də sən olmasaydın,*
*Yer üzü nə qədər boş görünərdi.*

"Poeziya evi"ndə Sumqayıtın pərvazlandırdığı tanınmış şair, Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu ilə də görüşdüm. İllərdən bəri "Göyərçin" jurnalına rəhbərlik edən, 20 cildlik "Seçilmiş əsərləri"nin artıq 19-cu cildi nəşr olunan Rafiq müəllim dedi:

– Mən 1966-cı ildən Sumqayıtda yaşayıram. Keçmişin adamlarını bu gün buraya gətirə bilsəydik, gənclik şəhərinin qurulmasında böyük əməyi olan, dünyasını dəyişən həmin ləyaqətli insanlar bu günün çiçəklənən, gündən-günə gözəlləşən, təmiz havalı Sumqayıtını görəndə çox sevinər, qürur duyardılar. Ancaq təbii ki, bu, mümkün olan iş deyil. Bu gün 75 yaşını qeyd etməyə hazırlaşan Sumqayıt sürətli inkişaf yolu keçərək ölkənin ən gözəl şəhərlərindən birinə çevrilib. Özü də bu şəhəri digərlərindən fərqləndirən ən əsas cəhət burada bütün regionlardan olan insanların yaşamasıdır. Bu şəhər hamımız üçün doğmalaşıb.

Sumqayıtın 75 yaşının tamamından bir ay sonra mənim də 75 yaşım tamam olacaq. Bu 75 illik ömrün düz 58 ili Sumqayıtda keçib. Mən hara səfər etsəm də, 1 gündən sonra Sumqayıtımın qoynuna tələsirəm. Sumqayıtın hazırkı rəhbərliyi şəhəri ən dilbər məkanlardan birinə çevirib.

Sumqayıt bir nağıldır. Zəhmətkeş insanların əlləri ilə yazılan bu nağıl indi də davam eləyir. Nəsillər bir-birini əvəz etdikcə bu nağıllar şəhəri də gündən-günə gözəlləşir. 75 yaşlı Sumqayıt ağıllı, intellektual səviyyəli, mədəni, Azərbaycanı bütün dünyada tanıtmağa qadir ləyaqətli insanların şəhəridir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Argentinanın ekran həyatı Bakıda

**Bakının "Landmark" kino klubunda Argentina Film Festivalının açılış mərasimi olub.**




Argentinanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Marianxeles Belluşi mərasimdə çıxış edərək, festival haqqında məlumat verib. O qeyd edib ki, bu festival Azərbaycan və Argentina arasında mədəni körpü rolunu oynayır.

"Festival çərçivəsində göstərilən ekran əsərləri vasitəsilə tamaşaçılar cəmiyyətimizin apardığı mübarizə və uğurları bir daha dərindən araşdıracaqlar", – deyə xanım diplomat əlavə edib.

Sonra argentinalı rejissor Ariel Vinoqradın ekranlaşdırdığı və Rio bankının qarətindən bəhs edən "Əsrin oğurluğu" filmi nümayiş olunub. 2020-ci ilin istehsalı olan bu komik döyüş dramında rolları 61 aktyor – Qilermo Franselya, Dieqo Peretti, Luis Luk, Pablo Raqo, Rafael Ferro və başqaları ifa ediblər.

Qeyd edək ki, Azərbaycan və Argentina arasında qurulan diplomatik əlaqələr artıq 30 ildir davam edir. Bu illər ərzində mədəni sahədə uğurlu yol qət edilib. Müxtəlif mövzulu sərgilər, beynəlxalq tanqo festivalı keçirilib. Azərbaycan Dillər Universitetində Argentina kafedrası yaradılıb. Ötən ay Ekspo Mərkəzində təşkil olunan X Bakı Beynəlxalq Kitab Sərgisində Latın Amerikası ölkələri ilə birgə Argentina da öz stendi ilə iştirak edib. Bu film festivalı da əlaqələrin inkişafında növbəti bir addımdır.

***XQ***

Yeni nəşrlər

# "Yurdun səsi" Qərbi Azərbaycanın harayıdır

**Azərbaycan Dövlət Pedaqoji Universitetində beynəlxalq əlaqələr üzrə prorektor, professor Mahirə Hüseynovanın təsis etdiyi və baş redaktoru olduğu "Yurdun səsi" qəzetinin ilk nömrəsi çapdan çıxıb.**


İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Zəngibasar mahalı, Göyçə mahalı tarixi Azərbaycan torpağıdır.
Heydər ƏLİYEV
Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacayıq!
İlham ƏLİYEV
Bir parça daş vətəndir!
YURDUN SƏSİ
BAŞ REDAKTORDAN

Qəzetdə ADPU-nun Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri Leyla Calalovanın "Heydər Əliyevin Qərbi Azərbaycana qayıdış siyasəti qan yaddaşımızdan keçir", filologiya fakültəsinin dekanı Könül Həsənovanın "Həsən Mirzə yaradıcılığında etnonimlər", Müasir Azərbaycan dili kafedrasının professoru İbrahim Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri", Qərbi Azərbaycanın Çəmbərək rayonunun Cil kəndi icmasının sədri, professor Fərrux Rüstəmovun "Göyçə mahalının Cil kəndində aşıq mühiti", dosent Həmzə Əliyevin "Qərbi Azərbaycan şivələrində "yaşayan" tariximiz" və digər yazılar yer alıb.

Qəzetin ilk nömrəsində baş redaktorun oxuculara müraciətində qeyd olunur ki, Qarabağ işğaldan azad olunduqdan sonra Azərbaycan xalqı qarşısında yeni hədəf müəyyənləşib: "Qərbi Azərbaycana qayıdış! Bu yolda bizim informasiya ruporlarına, sosial şəbəkə seqmentlərinə, jurnallara, saytlara və qəzetlərə ehtiyacımız var. "Yurdun səsi" də bu zərurətdən yaranıb. Zəngin tarixə, əsrarəngiz gözəlliyə malik Qərbi Azərbaycanın gənc nəslə tanıdılması və sevdirilməsi qarşımıza qoyduğumuz hədəflərdən biridir.

Qarşımızda yüz illərlə saxta tarix aşılamış, mifik arzularla yaşayan riyakar bir etnik qrup var – bizim şərti olaraq erməni adlandırdığımız haylar. Eyni zamanda, xristian güc mərkəzlərinin Türk dünyasının bütövlüyünü pozmağa yönəlmiş bufer zolağı yaradılması layihəsinin gerçəkləşməsi fonunda süni şəkildə yaradılmış Ermənistan "dövləti". Bu "dövlət" birmənalı şəkildə tarixi Azərbaycan torpaqlarında yaradılıb. Biz öz tarixi torpaqlarımıza qayıtmaq istəyirik. Bəs, bunu necə gerçəkləşdirəcəyik? Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, biz topla, tüfənglə deyil, öz elmimiz, zəkamız və yurdsevərliyimizlə Qərbi Azərbaycana qayıdacağıq. Biz buna inanırıq! "Yurdun səsi" – bu ad təsadüfən seçilməyib. Bu səs qəriblikdə qalan yurdumuz Qərbi Azərbaycanın səsidir".

***XQ***

# "İrəvanın gizli irsi" filmi beynəlxalq mükafat aldı

**Azərbaycanın beynəlxalq televiziya kanalı CBC-nin İrəvanın Azərbaycan tarixindən bəhs edən filmi Los-Ancelesdə keçirilən nüfuzlu "IndieX Film Fest"də "Üstün nailiyyət" mükafatına layiq görülüb.**




Film Ermənistanın hazırkı paytaxtında azərbaycanlıların olması barədə tarixin çox az məlum səhifələrindən bəhs edir. Tarixi xəritələri, sənədləri və nadir fotoşəkilləri tədqiq edən çəkiliş qrupu itirilmiş mədəni irslə bağlı ekspedisiyaya yollanıb. Təhlükəsizlik məqsədilə jurnalist araşdırması gizli kamera ilə aparılıb. Filmdə diqqət mərkəzində bu gün yaşayış massivlərinin yerləşdiyi Təpəbaşı Məscididir, həm də Cəfərabad kəndində Pənah xan Əlixanın oğlunun evi, Göy məscid və Əmir Səədin məqbərəsindən də bəhs edilir. Bu gün bu memarlıq abidələrindən və tarixi məhəllələrdən qalan hər şey tamamilə yox olmaq ərəfəsindədir. CBC-nin baş redaktoru Orxan Məmmədov XQ-yə müsahibəsində filmin uğuru və layihənin gələcəyi barədə məlumat verdi.

***– Öncə sizi mükafat almağınız münasibətilə təbrik edirik. Sənədli filmə belə beynəlxalq reaksiyanı gözləyirdinizmi?***

– Təşəkkür edirəm. Sözün düzü, bu xəbər bizim üçün gözlənilməz, amma xoş oldu. Biz, sadəcə, işimizi görürük. Ona qiymət verən isə tamaşaçılarımızdır. Görünür, işimizin öhdəsindən layiqincə gəlirik ki, onun sorağı təkcə Azərbaycandan yox, ölkəmizdən kənardan da gəlir. Onu qeyd edə bilərəm ki, CBC telekanalı sənədli filmlərə böyük önəm verir. 2023-cü ildə 90-a yaxın sənədli film tamaşaçıların ixtiyarına verilib. Bu il bu rəqəm, hələ ki, 60-dır. Bütün bu işləri biz əməkdaşlarımızın peşəkarlığı və fədakarlığı hesabına həyata keçiririk.

***– Filmin digər beynəlxalq müsabiqələrdə də iştirakı nəzərdə tutulurmu?***

– Bundan öncə bir neçə sənədli filmimiz müxtəlif festivallarda nümayiş olunub. Misal üçün, Urmiya gölünün qurumasından bəhs edən "Doğma sahillər" sənədli filmi Sinqapurda, Xorvatiyada müsabiqələrdə göstərilib, "Azərbaycan ərazisində türk tamğaları" sənədli filmi "New York International Film Awards" festivalının ¼ finalına yüksəlib və ümid edirik ki, mükafata da layiq görüləcək. O ki qaldı sözügedən "İrəvanın gizlədilmiş irsi" lentinə, Los Ancelesdə keçirilən "IndieX Film Fest"in mükafatına layiq görülənədək Amsterdamda beynəlxalq Film Festivalında finala yüksəlib. Fransada da bu sənədli film böyük marağa səbəb olub və biz bu ölkədə keçirilən festivallardan birinə dəvət almışıq. Düşünürəm ki, filmə maraq varsa, digər beynəlxalq müsabiqələrə də müraciət etməliyik.

***– Layihə Qərbi Azərbaycanın digər ərazilərini də əhatə edə bilərmi?***

– Artıq əhatə edir. "İrəvanın gizlədilmiş irsi" Qərbi Azərbaycan mövzusunda hazırkı Ermənistan ərazisində çəkilən sənədli filmlər silsiləsindən yalnız biridir. Həmin ekran əsərlərindəki çəkilişlər təkcə İrəvanda deyil, Qərbi Zəngəzurda da aparılıb və bu işlər davam edir. İlin sonunadək bu mövzuda daha bir sənədli filmi tamaşaçılarımıza təqdim etməyi düşünürük.

***– Filmdə ermənilərin mədəniyyət şovinizmi aydın şəkildə ifşa olunur. Necə düşünürsünüz, bu filmin beynəlxalq müstəvidə yayılması İrəvanda Azərbaycan izinin silinməsi prosesinə necə təsir göstərə bilər?***

– Biz öhdəmizə düşən işləri görmüşük və bu proses davam edir. CBC televiziyasının komandası çəkilişlər aparır, Qərbi Azərbaycanda soydaşlarımıza məxsus mədəni irsin silinməsi ilə bağlı sübutları öz sənədli filmlərində nümayiş etdirərək bütün dünyaya çatdırır. Həmin kadrlarda hər şey açıq-aşkar görünür. Ümid edirəm ki, dünya ictimaiyyəti, aidiyyəti beynəlxalq qurumlar sənədli filmlərimizdə göstərilən kadrları izləyib Ermənistanda mədəni irsimizə qarşı davam edən cinayətlərin qarşısını almaq üçün lazımi addımlar atacaqlar.

***Müsahibəni apardı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

Beynəlxalq həyat

# İsrailin İrana hərbi zərbəsi

## *Yaxud növbəti hərbə-zorbası*

**Dünən sübh tezdən ekspertlərin çoxdan gözlədikləri hadisə baş verib: İsrail İran ərazisinə qırıcı təyyarələr və ballistik raketlərlə davamlı zərbələr endirib. Hava zərbələri gün ərzində bir neçə dəfə təkrar olunub.**



İran tərəfi aviazərbələrin böyük əksəriyyətinin havada zərərsizləşdirildiyini bildirib. Buna baxmayaraq, dağıntı və itkilərin olduğu etiraf olunur. Görünən budur ki, regionda ağır və üzücü müharibə alovlanmağa başlayıb.

Qeyd edək ki, dünən günün erkən saatlarında İsrailin Müdafiə Ordusunun mətbuat xidməti "Teleqram" kanalında belə bir məlumat yayıb: "İran rejiminin İsrail dövlətinə qarşı aylarla davam edən hücumlarına cavab olaraq, hazırda İsrail İrandakı hərbi obyektlərə dəqiq zərbələr endirir".

Xatırladaq ki, bu il oktyabrın 1-də HƏMAS hərəkatı, Livanın "Hizbullah" təşkilatı və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (Silahlı Qüvvələrin elit hissələri) rəhbərliyindəki şəxslərin öldürülməsinə cavab olaraq, İran Ordusu İsrail ərazisinə kütləvi raket zərbələri endirib. Təl-Əviv bunu cavabsız qoymayacağını bildirmişdi.

İsrail–İran qarşıdurması indi qlobal medianın əsas mövzusudur. ABŞ-nin "Axios" portalı yerli mənbələrə istinadən bildirib ki, İsrail şənbə günü səhər tezdən İrana hücum edib. Bundan əvvəl "Tasnim" agentliyi Tehranda partlayış səslərinin eşidildiyini xəbər verib. Bir çox mətbu nəşrlər qeyd ediblər ki, İran İslam Respublikasının paytaxtı Tehranda ağır partlayışlar və dağıntılar olub.

İran ordusunun məlumatına görə, İsrail Tehranda, eləcə də Xuzistan və İlam əyalətlərində bir neçə hərbi mərkəzə aviazərbələr endirib. İsrailin gecə saatlarında İrana hücumu zamanı iki hərbçi həlak olub. Dünən gün ərzində yayılan başqa bir xəbərdə isə deyilir ki, İranın cənub-şərqində baş verən hücumda 10 iranlı sərhədçi öldürülüb.

"Mehr" və "Tasnim" xəbər agentlikləri hücumun necə həyata keçirildiyini açıqlamadan bildiriblər ki, sərhədçilər Taftan mahalında hərbi maşınlara edilən hava hücumu zamanı öldürülüblər.

NBC telekanalının məlumatına görə, İsrailin Tehrana hücumunun hədəfi, ilk növbədə, hərbi obyektlər və silah anbarları ola bilər. Bu arada məlum olub ki, Tehranın cənubundakı Şəmsabad sənaye şəhərində yerləşən "Taksaz" hərbi zavodu İsrail ordusunun hücumuna məruz qalıb. Bu barədə "Azad İran" kanalında məlumat verilib. Hücumdan sonra bölgəyə bütün giriş yolları bağlanıb və təhlükəsizlik tədbirləri gücləndirilib.

İran Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada deyilir ki, Tehranın BMT Nizamnaməsi əsasında özünü digər ölkələrin "aqressiv hərəkətlərindən" müdafiə etmək hüququ və öhdəliyi var.

Bu arada İsrailin şimal bölgələri Livan ərazisindən yenidən atəşə tutulub. Bildirilib ki, Livan ərazisindən, təxminən, 15 raket atılıb və buna görə Qərbi Qalileyanın bəzi ərazilərində hava hücumu xəbərdarlığı elan edilib. "Mərmilərin bir hissəsi zərərsizləşdirilib", – deyə məlumatda qeyd olunub. Xəsarət alanlar və dağıntılar barədə məlumat verilməyib.

"Hizbullah" hərəkatı isə İsrailin şimalında "Mossad" kəşfiyyat xidmətinin qərargahına zərbə endirib. Bu barədə xəbərdə qeyd edilir ki, İraq İslam Müqavimət Hərəkatının döyüşçüləri Səfəd şəhərində Mişar bazasına – İsrailin şimal bölgəsi üzrə əsas kəşfiyyat qərargahına bir neçə raket atıb.

Bir sözlə, İsraillə onun barışmaz rəqibi İran arasında ağır silahlı münaqişənin yeni, daha kəskin mərhələsi başlanıb. Hadisələrin bundan sonra hansı istiqamətdə cərəyan edəcəyini proqnozlaşdırmaq çətindir.

***M.HACIXANLI***
***XQ***

# Payız yoluxmaları ilə bağlı təşvişə səbəb yoxdur

## *Ölkəmizdə epidemioloji duruma nəzarət edilir*

**Havaların soyuması ilə xəstəliyə yoluxmalar çoxalıb. Tibb müəssisələrinə gedənlərin sayı da artıb. Bəzi xəstələr isə təbii üsullarla müalicəyə üstünlük verirlər. Öskürək, qızdırma, burun tutulması ilə müşayiət olunan yoluxmalar koronavirusun yeni mutasiyası, mövsümi qrip, yoxsa yeni bir virusdur? Bu sualla müraciət etdiyimiz Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov XQ-yə bildirdi:**



– Yeni koronavirus infeksiyası, bildiyimiz kimi, vaxtaşırı dalğalanmalarla təzahür edir. Virusun mutasiyaya uğraması onun təbii təkamülü olub bütün dövrlərdə davam etməkdədir. Bu altnövlər, təxminən, eyni klinik əlamətlərlə müşayiət olunur. Onların hər biri digərindən yoluxuculuq sürətinə görə fərqlənsə də, immunkompetent şəxslərdə ağır xəstəliktörətmə potensialı kiçikdir. Çünki əhali əvvəllər kütləvi şəkildə bu infeksiyanı keçirib və vaksinasiya olunub. Ona görə, epidemioloji vəziyyəti izləyən mütəxəssislər bir o qədər də narahat deyillər. Yalnız risk qruplarına aid insanlar diqqətli olmalı, profilaktik tədbirlərə ciddi əməl etməlidirlər.

Hazırda bir çox, o cümlədən bizə qonşu olan ölkələrdə yayılan viruslar Omikron ştamının FLIRT, XEC və bu kimi altnövləridir. Müəyyən edildiyi kimi, XEC variantı, əsasən, yuxarı tənəffüs yollarını zədələyir, xəstələrdə ümumi halsızlıq, oynaq və əzələ ağrıları, öskürək, boğaz ağrısı, burun tutulması və s. kimi əlamətlərlə təzahür edir. Bir çox alimlər həmin növün məhz bu payız–qış aylarında əksər ölkələrdə "dominantlıq" edəcəyini, lakin yeni koronavirusla ümumi xəstələnmə hallarının səviyyəsinin 2023-cü ilin qış fəslində olduğundan fərqlənməyəcəyini proqnozlaşdırırlar.

***– Ölkəmizdə vəziyyət necədir? Yoluxmalar nədən xəbər verir?***

– Azərbaycana gəldikdə, onu demək olar ki, vaxtaşırı çox cüzi dalğalanmalar olsa da, hazırda yoluxmalarla bağlı diqqət çəkən artımlara rast gəlinmir. Epidemioloji durum qənaətbəxş hesab edilir və nəzarət olunandır. Bu infeksiyadan qorunma üsulları digər hava-damcı infeksiyaları zamanı (kəskin respirator virus infeksiyaları, qrip) tətbiq olunan vasitələrlə eynidir. Xüsusi olaraq risk qrupuna daxil olan insanların – hamilə qadınların, immundefisitli, mərkəzi sinir sistemi, qaraciyər, böyrək, onkoloji, xüsusən tənəffüs sisteminin xroniki xəstəlikləri və metabolik pozğunluqları, məsələn, şəkərli diabeti, ağır xroniki xəstəliyi olanların, ahıl şəxslərin daha ehtiyatlı olmaları tövsiyə olunur.

Müxtəlif alimlər tərəfindən koronovirus ştamlarına qarşı tətbiq edilən peyvəndlərin yeni yaranmış ştamlara qarşı da müəyyən qədər təsirli olması barədə ehtimallar səslənir. O cümlədən, COVID19-un mövsümi kəskin respirator virus infeksiyaları ilə də əlaqədar ola bilər. Yəni oxşar simptomlarla müraciət edən şəxslərdə qeyd olunan fərqli infeksiyalar təsdiqlənə bilir. Konkret xəstəlik halında bunun hansı infeksiya olduğunu yalnız spesifik müayinələr aşkar edə bilər.

Kəskin respirator virus infeksiyaları xeyli çoxdur. Bunların arasında fəsillə bağlı qrip nisbətən daha təhlükəlidir, ağırlaşmalar və xoşagəlməz nəticələri ilə fərqlənir. Bu infeksiyalardan qorunma yolları, əsasən, qeyri-spesifikdir və hava-damcı yolu ilə yayılan bütün infeksiyalar üçün ümumidir.

***– Alış-veriş mərkəzləri, nəqliyyat kimi qapalı məkanlarda necə qorunaq?***

– Qripə qarşı spesifik və təsirli qorunma vasitəsi vaksinasiyadır. Hər il sentyabr–oktyabr aylarında dövriyyədə olan fəslə uyğun qrip viruslarına qarşı olunan peyvənd həmin şəxsi növbəti vaksinasiyayadək qoruyur.



müalicəsində istifadə edilən antiviral preparatların yeni altnövlərin müalicəsində də təsirli olması qeyd olunur. Bildirilir ki, məcburi maska taxma dövrü arxada qalmışdır. İnsanların xəstələnmə riskini azaltmaq üçün maskanın qapalı yerlərdə taxılması və xəstələndikdə başqalarını yoluxdurmamaq üçün onların evdə qalması arzuolunan hesab edilir.

***– Yoluxan insan hansı müalicədən istifadə etməyi necə müəyyənləşdirsin?***

– Xəstəlik əlamətlərinin səciyyəsinə görə, hazırkı koronavirus infeksiyasını KRVİ-dan (kəskin respirator virus infeksiyalarından) ayırmaq mümkün deyil. Lakin onu da vurğulamaq lazımdır ki, yuxarıda qeyd olunan xəstəlik əlamətləri hazırda

Ölkəmizdə hər il Səhiyyə Nazirliyinin dəstəyi ilə bu tip peyvəndlər gətirilərək ambulator-poliklinik müəssisələrə paylanılır və qripə qarşı vaksinasiyanın əhali, birinci növbədə, risk qrupları arasında aparılmasına çağırışlar edilir. Yadda saxlamaq lazımdır ki, yalnız vaxtında edilmiş peyvənd bir çox xoşagəlməz fəsadların və ağır nəticələrin qarşısını ala bilər. Qapalı məkanlara girərkən, mümkün qədər, maskadan istifadə etmək də təsirli ehtiyat tədbirlərindən biridir.

***– Açıqlama və məsləhət üçün təşəkkür edirik.***

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Deməyi bizdən...

# Sabunçunun asfaltsız küçəsi

## *Özü də şəhidin adını daşıyır*

**Paytaxt çoxminli qonaqlarını gözləyir. Bununla bağlı mərkəzdə geniş abadlıq, təmizlik işləri görülür. Şəhər ətrafının problemlərinin həlli ilə bağlı davamlı layihələr də gerçəkləşdirilir. Bütün bunlar sevindirici olduğu kimi, nöqsanlar, çatışmazlıqlar da bir o qədər təəssüf və narazılıq doğurur.**



Sabunçu sakinlərinin rahatlığını pozan nöqsanlardan biri qəsəbənin bir çox küçələrinin bərbad, tör-töküntü, toz-palçıqlı durumudur. İllərdən bəri asfalt örtüyə həsrət qalan küçələr bu yerin qəsəbə olduğuna şübhə yaradır. Böyük, izdihamlı bir küçə isə şəhid Elşən Mehdiyevin adını daşıyır.

Vaxt var idi ki, Elşən də yaşıdları kimi



bu toz-torpaqlı yollarla məktəbə getmək məcburiyyətində qalmışdı. Lakin onun ürəyində Vətən torpağı qədər böyük sevgi var idi. Elə o ruhla da Qarabağ savaşında igidlikləri ilə şəhadətə qovuşdu. Elşənin böyüdüyü məhəllə şəhid övladları ilə fəxr edir, onunla öyünür. Elşənin adı yaşadığı əraziyə veriləndən sonra isə sakinlər düşündülər ki, əlaqədar təşkilatlar, nəhayət, insafa gəlib şəhidin adına layiq abadlıq işləri görəcəklər.

Küçə sakinləri nə vaxtdır ki, yola asfalt salınacağını, ərazinin abadlaşacağını gözləyirlər. Bu günlərdə yağan leysan yağışın fəsadlarına – gölməçələrə, palçıq yığnağına baxanda ilk yada düşən belə bir sual olur:

– Xalqımıza igid bir oğul vermiş məhəllənin sakinləri belə bir narahatlığa, diqqətsizliyə layiqdirlərmi? Axı burada Elşənin doğmaları, dostları, onu sevənlər yaşayır. Bir də burada sabahın Elşən kimi övladları böyüyürlər.

Nəhayət, Bakının gözəlliyinə, səliqə-sahmanına heyran qalan qonaqlardan birinin yolu bu baxımsız məhəlləyə düşərsə... Sabunçu rayonunun məsul şəxsləri, heç olmasa, bunu düşünsünlər.

***Kəmalə ABDİNOVA***
***XQ***

# "Təhlükənin kulminasiya nöqtəsi"

**"Gilavar Foto Klubu" İctimai Birliyinin mina qurbanlarına həsr olunmuş "Təhlükənin kulminasiya nöqtəsi" layihəsinin bağlanış mərasimi keçirilib.**



Qonaqlar əvvəlcə "Düyməni sıxan ayaqlar" adlı fotosərgiyə baxıblar.

Sonra, qurumun idarə heyətinin sədri Rəşad Mehdiyev layihə haqqında geniş məlumat verdi. Bildirdi ki, layihənin məqsədi cəmiyyəti mina təhlükəsi ilə bağlı maarifləndirmək və bəşəriyyətə bununla bağlı mesaj ötürməkdir: "Bu fotoları ürək ağrısı və göz yaşı ilə çəkmişik. Onlarla ünsiyyət quranda belə həyəcanlanmamaq, yaşadığı iztirabları duymamaq mümkün deyil. Gəlin, belə kateqoriyadan olan insanlara qayğı və həssaslıqla yanaşaq".

Daha sonra, Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) Beynəlxalq əlaqələr, maarifləndirmə və mətbuatla iş



idarəsinin rəisi Ramil Əzizov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev və Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəsi Bişnu Mahat çıxış edərək mina təhlükəsinə qarşı mübarizənin gücləndirilməsinin əhəmiyyətindən bəhs ediblər.

Çıxışların ardınca mina terrorunun qurbanları öz hekayələrini tədbir iştirakçıları ilə bölüşüb.

Sonda mina təhlükəsi ilə bağlı hazırlanmış videoçarxlar və Çexiyanın paytaxtı Praqa şəhərində mina qurbanlarına həsr olunmuş fotosərgidən kadrlar nümayiş olunub. Yeri gəlmişkən, "Düyməni sıxan ayaqlar" adlı ilk sərgi Praqanın Qədim Şəhər Meydanında təşkil olunub. Çoxlu sayda turist və yerli sakin sərgini ziyarət edə bilib.

Məlumat üçün bildirək ki, layihə mina hadisələrinin tez-tez baş verdiyi bölgələrdə və cəbhəyanı ərazilərdə həyata keçirilir. Layihə iştirakçıları tərəfindən həmin ərazilərə səfərlər edilir, müxtəlif dövrlərdə mina partlayışları nəticəsində zərərçəkmiş insanlarla görüşlər keçirilir.

***Fidan SALMANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 237 (30641) 27 oktyabr 2024-cü il, bazar

İdman xəbərləri

## Gimnastlarımızın gimnaziada medalı

**Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında Azərbaycanın aerobika gimnastikası üzrə qrup hərəkətləri komandası uğurla çıxış edərək medal qazanıb.**



Leyla Əhmədova, Sara Əlixanlı, Fidan İbrahimova, Məryəm Topçubaşova və Evelina Kozlovskayadan ibarət kollektiv gümüş medala sahib olub. Fərdi proqramda çıxış edən Məryəm Topçubaşova daha əvvəl 3-cü yeri tutub, bürünc mükafata sahib çıxıb.

Qeyd edək ki, oktyabrın 30-dək davam edəcək oyunlarda 26 idman növü üzrə 71 ölkədən, ümumilikdə, 18 yaşadək 3687 idmançı mübarizə aparır. Azərbaycan gimnaziadada 16 növ üzrə 160 idmançı ilə təmsil olunur.

## Stolüstü tennisçilərimiz Riqada qalib olublar

**Latviyanın paytaxtı Riqa şəhərində keçirilən "Riga City Council's Youth Cup" beynəlxalq turnirində Azərbaycanın stolüstü tennisçiləri Onur Quluzadə ilə Yağmur Məmmədli uğurla çıxış ediblər.**



U-13 yaş kateqoriyasında mübarizə aparan millimizin üzvləri bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar.

Azərbaycan millisi beynəlxalq yarışa 16 idmançı ilə qatılıb.

Turnirə oktyabrın 27-də yekun vurulacaq.

*LQ URBANOVA*
*XQ*

Sənət dünyası

# Bu kino ki var...

## *Onun yolu ədəbiyyat və teatrdan keçib*

**Kino sənəti teatr sənətinə çox yaxındır. Hər ikisinin əsasını dramaturji material təşkil edir. Həm kino, həm də teatr sintetik sənətlərdir. Eyni zamanda, onlar arasında ciddi fərqlər var. Teatrda hadisə şərti şəraitdə baş verir, əgər hadisələr müharibədə baş verirsə, cəbhənin dekorasiyasını düzəldirlər. Kinoda isə tamaşaçı həyatı bilavasitə təcəssümdə, bütün müxtəlifliyi, çoxcəhətliliyi ilə görür. Teatrda hərəkət səhnə ilə məhdudlaşdırılır. Kinonun isə məkan və zaman imkanları, demək olar ki, hədsiz-hüdudsuzdur.**



Kino çıxanda çoxları düşünürdü ki, teatr sənəti olaraq sıradan çıxacaq. Amma belə olmadı. Teatr və kino bir-birini əvəz etmir və bir-birini sıradan çıxarmır, əksinə, bir-birinə kömək edir, bir-birini ifadə vasitələri ilə zənginləşdirir.



Kino teatra nisbətən gənc sənətdir. O, XIX əsrin axırında meydana gəlmişdir, onun "valideynləri" elm və texnika oldu. Kinonun meydana gəlməsinə təkan verən amil hərəkət edən fotoqrafiyanın ixtira edilməsi idi. Yeri gəlmişkən, kinematoqraf yunanca "hərəkət edən" deməkdir. Kino üçün hərəkət rəssamlıq üçün rəngi, musiqi üçün səsi, ədəbiyyat üçün sözü əvəz edir. Çəkilmiş hər bir film, hər bir kadr hərəkətsizdir. Hərəkət illüziyası fasiləsiz görmə qavrayışından yaranır ki, bunu da texnika təmin edir. Qavrayışın bu fasiləsizliyi kinonun ifadə vasitələrindən biridir.

Texnika kinoya montaj imkanları yaradır. Montaj kinoda əlaqələrin ardıcıllığı üçündür. Çarli Çaplinin "Yeni dövrlər" filmində bir kadrda qovulub aparılan qoyun sürüsü görünür, bundan sonrakı kadrda isə metronun dar keçidindən tələsik ötüb keçən fəhlələri görürük. Assosiasiya əsasında kəskin satirik obraz yaranır, kapitalist istehsalında adamlar heyvan sürüsü kimi təqdim edilir. Montaj kinoya xas olan obrazlı təfəkkürdür. Bunun sayəsində tamaşaçı hadisələrin, az qala, iştirakçısına çevrilir.

Kino təkcə nəticəni deyil, həm də prosesi göstərir, hadisələri təkcə təsvir etmir, həm də onları təhlil edir. Biz baş verən hadisələrin dərk edilməsi prosesinə fəal surətdə cəlb olunuruq. Kino şüurlu surətdə hər şeyi açıq demir, tamaşaçı yarımçıq qalmış əhvalatın ardını düşünməyə məcbur olur. Rejissorun ustalığı bundan ibarətdir ki, ən mühüm cəhət açılanda, kinokadr tərəfindən oyadılan təxəyyül lazımi istiqamətdə işlədikdə fikri qırır, yarımçıq qoyur.

Bildiyiniz kimi, əvvəlcə kino səssiz olmuşdur. Bu səbəbdən adamlar arasındakı münasibətlərin bütün mürəkkəbliyini, müxtəlif vəziyyətlərə qarşı reaksiyaları sözsüz vermək lazım gəlirdi. İfadə vasitələri mimika, jestlər idi. Səssiz kino dövründə çoxlu yaxşı filmlər çəkilib. Onlar artıq tarixin materialına çevrilib. S. Eyzenşteynin "Potyomkin" zirehli gəmisi", Pudovkinin "Sankt-Peterburqun sonu", Ç.Çaplinin ilkin dövr filmləri və başqalarını misal gətirmək olar. Sənaye şəhərinə çevrilmiş Bakıda ötən əsrin əvvəllərində "Neft və milyonlar səltənətində", "Ağ və qara şəhər" və digər filmlər çəkildi. Bu filmlər neft Bakısının XX əsrin əvvəllərindəki həyatını, Bakı müsəlman milyonçularının məişətini, neft mədənlərində ən çətin şəraitdə işləyib yaşayan fəhlələrin ağır güzəranını ekranda canlandırır.

Səssiz kinonu "dahi lal" adlandırırdılar. Kinonun tarixini iki dövrə – səssiz və səsli dövrə bölürlər. Səs, sonra isə rəng kinoya elm və texnikanın sonrakı inkişafı nəticəsində gəlmişdir. Beləcə, "dahi lal" nitq qabiliyyəti qazandı. İnsan ekranda dil açdı, rəng təsvir olunanlara daha dürüstlük və inandırıcılıq verdi. Nəhayət, geniş ekran, geniş formatlı və panoram kino meydana gəldi. Kino insana özünün mənəvi aləminə nəzər salmaq imkanı qazandırdı. Kino gerçəkliyin estetik cəhətdən mənimsənilməsi dairəsini genişləndirdi.

Dünyanı süjetli əks etdirmək kinonu ədəbiyyatla da qohumlaşdırdı. Teatr, kino və ədəbiyyat – bu üç qohumun XX əsrdə dünya mədəniyyətinə verdiyi töhfələr həm də onun inkişafını şərtləndirdi.

*Kənan HACI,*
*yazıçı-publisist*

## İqtisad Universitetinin dünya uğuru

**Azərbaycan Dövlət İqtisad Universiteti elmi uğurlarını ildən-ilə artıraraq, tədqiqat sahəsində də mövqeyini gücləndirir. Son illərdə yüksək keyfiyyətli beynəlxalq bazalarda tədqiqatçıların məqalələrinin sürətli artımı bunun bariz nümunəsidir.**

Belə ki, bu ali məktəbdin "Web of Science"də çap olunan məqalələrinin sayı cari ilin ötən dövründə 2015-ci illə müqayisədə 226 dəfə, həmin məqalələrə edilən istinadların sayı isə 360 dəfə artıb. Bununla yanaşı, ən yüksək keyfiyyətli Q1-də çap olunmuş məqalələrin sayında isə son yeddi ildə 63 dəfə artım qeydə alınıb.




"Clarivate" şirkətinin nümayəndəsi Valentin Bogorov ADİU-nun bu uğurunu xüsusi vurğulayaraq, bu sahədə dünyada lider olduğunu bildirib.

*XQ*

## "Qarabağda ekoloji vəziyyət"

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Azərbaycan Coğrafiya Cəmiyyətinin Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu ilə birgə COP-29-a dair maarifləndirmə xarakterli silsilə tədbirləri davam edir.**

Əvvəlcə "Qarabağda ekoloji vəziyyət" layihəsinin icrasının davamı kimi Naftalan şəhər məktəbi şagirdlərinin iştirakı ilə fləş-mob, şəkil müsabiqəsi və ekoloji səyahət təşkil edilib.

Növbəti gün "Təbii mühiti qoruyaq" devizi altında şəhərətrafı əraziyə ekotur təşkil edilib. Şagirdlərə rezin əlcək və tullantılar üçün torbalar paylanıb, ərazi ətrafdakı tullantılardan təmizlənib. Təlimçilərin köməyilə məktəblilər tökülmüş yarpaqlardan herbari və ikebana düzəldiblər.

Tədbirin sonuncu günündə "Yaşıl dünya naminə həmrəylik ili" və "Qarabağın ekoloji problemləri" mövzusunda şəkil



müsabiqəsi və şagirdlərin əl işlərindən ibarət sərgi keçirilib.

*XQ*



# Yağışlı, dumanlı və küləkli bir bazar günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 27-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecə yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcək, gündüz dayişkən buludlu, əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 8-11°, gündüz 12-15° isti olacaq.**

Atmosfer təzyiqi 770 mm civə sütunundan 773 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə və gündüz 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Günün ikinci yarısında yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 13-17° isti, dağlarda gecə 2-5° şaxta, gündüz 2° şaxtadan 2°-dək isti olacaq.

*QQ ASIMOV*
*XQ*

## Pirallahıda 3 min ağac əkilib

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində bu il ölkəmizin bütün bölgələrində mütəmadi olaraq kütləvi ağacəkmə aksiyaları təşkil edilir. Bu aksiyalar Bakıda da geniş vüsət alıb. Şəhərin müxtəlif ərazilərində, parklarda, istirahət bağlarında, prospektlərin və küçələrin kənarlarında yerli iqlimə uyğun ağaclar, kollar və güllər əkilir.**



Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən verilən məlumata görə, Bakı şəhər və paytaxt rayonlarının icra hakimiyyətləri oktyabrın 18-dən 27-dək ölkə üzrə "Yaşıl bir dünya üçün həmrəy olaq!" şüarı altında keçirilən genişmiqyaslı ağacəkmə aksiyalarında yaxından iştirak edirlər.

Növbəti belə aksiya oktyabrın 26-da Bakı şəhər və Pirallahı rayon icra hakimiyyətlərinin təşkilatçılığı ilə rayonun əsas magistral yolunun kənarındakı boş ərazidə keçirilib. Aksiyada 3000-dən çox Eldar şamı, 2000-dən çox oleandr kolu əkilib. Yeni əkilən ağaclara və kollara aqrotexniki qulluq göstərilib, onların qorunması və suvarılması ilə bağlı tədbirlər görülüb.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00